QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 156 (5144) **27 avqust** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Uğurlu sosial-iqtisadi siyasət

*İlham Əliyev: "Yeni iş yerlərinin açılması daimi proses olmalıdır"*



Səh 2

**Xeyirxahlıq rəmzi**




3

**İstanbulda Sultan Səlim Yavuz asma körpüsünün açılış mərasimi olub**



5

**Konstitusiyaya əlavə və dəyişikliklər zərurətdən irəli gəlir**



5

**Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib**



8

**"Biz həyətə girəndə partlayış baş verdi"**



7

**Aleksandr Duqin: "Ermənistandan heç nə qalmaya bilər"**



14

12

**Ermənistanda sosial etirazlar səngimir**



13

**"Ermənistan İran-Azərbaycan münasibətlərindən təlaşlanır"**



16

**Ronaldo Avropanın ən yaxşı futbolçusudur!**



# Uğurlu sosial-iqtisadi siyasət

## İlham Əliyev: "Yeni iş yerlərinin açılması daimi proses olmalıdır"



***Son illər mühüm nailiyyətlər və tarixi uğurlarla ildən-ilə inkişaf edən Azərbaycan iqtisadiyyatı uzunmüddətli və dayanıqlı inkişafa hesablanıb. Xüsusilə, bu istiqamətdə ölkə iqtisadiyyatının çoxşaxəli inkişafı qarşıda duran və əsas prioritetlərdən olan sosialyönümlü prinsiplərin tam şəkildə icrası ilə xarakterizə olunur.***

### Dinamik iqtisadi tərəqqi-güclənən sosial siyasət



Prezident İlham Əliyevin iqtisadi inkişaf modelinin ən mühüm uğuru iqtisadi dividendlərin, ilk növbədə, əhalinin rifah halının yüksəldilməsinə, vətəndaş firavanlığının təminatına və insan kapitalının inkişafına yönəldilməsi, dinamik iqtisadi tərəqqinin daim güclənən sosial siyasətlə tamamlanmasıdır. Ölkə Prezidentinin Sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu ilin altı ayında respublikamızda yeni iş yerlərinin yaradılması ilə bağlı vəziyyətə toxunaraq deyib: "Cari ilin altı ayında 78 min daimi iş yeri açılıb. Ümumiyyətlə, iş yerlərinin açılması 90 minə yaxındır. Onlardan 78 mini daimi iş yeridir. Bu da çox müsbət haldır".

Dövlət başçısı görülən tədbirlər nəticəsində, o cümlədən, dövlət şirkətlərinin xətti ilə açılmış iş yerlərinin sayı hesabına burada da müsbət dinamikanın müşahidə edildiyini, özəl sektorda da bu işlərin getdiyini diqqətə çatdırıb: "Biz görülən tədbirlər nəticəsində, o cümlədən, dövlət şirkətlərinin xətti ilə açılan iş yerlərinin sayı hesabına, - özəl sektorda da bu işlər gedir, - burada da müsbət dinamikanı görürük. Özəl sektora da dövlət qurumları tərəfindən çox ciddi tövsiyə edilib ki, onlar ixtisarlara getməsinlər, bir qədər az pul qazansınlar, ancaq insanları küçələrə tökməsinlər...".

Göründüyü kimi, statistik faktlar da Azərbayca iqtisadiyyatının uğurlu inkişafını təsdiqləyir. Belə ki, Statistika Komitəsinin məlumatına görə, bu il avqustun 1-i vəziyyətinə görə, ölkədə iqtisadi fəal əhalinin sayı 4 milyon 962 min 300 nəfər olub. Onlardan 4 milyon 716 min 500 nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil edib. Cari il iyulun 1-də muzdla işləyənlərin sayı 1 milyon 521 min 100 nəfərə çatıb. 889 min 700 nəfər iqtisadiyyatın dövlət sektorunda, 631 min 400 nəfər qeyri-dövlət sektorunda çalışıb. Neft sektorunda işləyənlərin sayı 34 min 500 nəfər, qeyri-neft sektorunda çalışanların sayı isə 1 milyon 486 min 600 nəfər olub. Regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş üçüncü Dövlət Proqramının icrasını əhatə edən 1 yanvar 2014-cü ildən 1 iyul 2016-cı ilədək olan dövr ərzində ölkədə, ümumilikdə, 336 min 300, o cümlədən, 269 min 400 daimi iş yeri yaradılıb. Bu dövrdə yaradılmış iş yerlərinin 63,7 faizi qeyri-dövlət sektorundadır.

### Son 12 ildə 1 milyon 500 min iş yeri yaradılıb

"Son 12 ildə 1 milyon 500 min iş yeri yaradılıb, 1 milyon iş yeri daimidir. Digər tərəfdən, Azərbaycan əhalisi artıb, bu il Azərbaycan əhalisi 9,7 milyon nəfərdir. Əhalinin artması inkişafın əlamətidir. Əhalinin artması üstünlükdür, eyni zamanda, bizi daha fəal işləməyə çağırır. Mən əhalinin artmasına sevinirəm, ancaq infrastruktur, iş yerləri də buna uyğun artmalıdır". Bu sözləri "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyev söyləyib.

Dövlət başçısı qeyd edib ki, kənd yerlərində əhalinin məşğulluğunun artırılması üçün aqrar sektorun inkişafına daim diqqət yetirilməlidir. Prezident bu istiqamətdə görülməli işlərə nümunə olaraq, bildirib ki, Kənd Təsərrüfatı Nazirliyi pambıqçılıqla daha geniş məşğul olmalıdır: "Pambıqçılıq həm çoxlu sayda iş yeri, həm də valyuta gətirən məhsul deməkdir. Pambığı yığan insanlara verilən pul artırılmalıdır. Mənə verilən məlumata görə, 1 kiloqram pambığı yığanlara 42 qəpik verilir. Bu, azdır, qiymət əhəmiyyətli dərəcədə qaldırılmalıdır. Biz tütünçülük və çayçılığı da inkişaf etdirməli, canlandırmalıyıq".

Prezident İlham Əliyev ölkənin hərtərəfli və dayanıqlı inkişafını təmin etmək üçün regionlarda infrastruktur layihələrinin həyata keçirilməsini önə çəkərək, vurğulayıb ki, sosial müəssisələrin yaradılması həm də yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyət daşıyır. Prezident əminliklə vurğulayıb ki, 2016-cı ildə bu sahədə həyata keçiriləcək layihələrlə yeni iş yerlərinin yaradılması istiqamətində uğurlu addımlar atılacaq: "Baxmayaraq ki, son 12 il ərzində bir milyon 500 min yeni iş yeri açılıb, yenə də iş yerlərinin açılmasına ehtiyac var. Əminəm ki, 2016-cı ildə "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla icra ediləcək. Bu il icra ediləcək layihələr imkan verəcək ki, 2016-cı ildə də ölkə iqtisadiyyatı inkişaf etsin, yeni iş yerləri, sənaye müəssisələri yaradılsın və biz bu dinamikanı nəinki saxlaya, hətta sürətləndirə bilək".

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət əhalinin rifah halının yüksəldilməsinə, onların sosial müdafiəsinin gücləndirilməsinə, işsizliyin aradan qaldırılmasına növbəti töhfələrini verəcək.

**ÜLVİ ƏSGƏROV**

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Salyan rayonunun Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, 5 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 3,8 milyon (üç milyon səkkiz yüz min) manat ayrılsın. Maliyyə Nazirliyi və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə bu Sərəncamda nəzərdə tutulan məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etmələri tapşırılıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Moldova Prezidenti Nikolaye Timoftiyə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Moldova Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm. Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Moldova xalqına əmin-amanlıq və firavanlıq arzulayıram".

# Xeyirxahlıq rəmzi

***Rusiya Federasiyasının Həştərxan vilayətində çıxan "Volqa" ictimai-siyasi qəzetinin 23 avqust tarixli nömrəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva haqqında "Xeyirxahlıq rəmzi" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.***

* * *

Məşhur adamlar haqqında yazmaq çətindir. Öz ölkəsinin hüdudlarından uzaqlarda da məşhur olan insan barədə təzə nə demək olar? Axı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı həqiqətən bütün dünyada tanıyırlar. Hər halda çox məşhur və eyni zamanda, bizə tanış olmayan bu qadının portretinə bəzi ştrixlər əlavə etməyə çalışacağıq.


Вторник, 23 августа 2016 • Газета ВО...
...ОТРУДНИЧЕСТВО WWW.ASTRAVO...
...МОСТЫ ДРУЖБЫ

ПОД ЗНАКОМ ДОБРОТЫ

...сать об известных людях ...рудно. Что нового можно ...азать о человеке, который ...вестен далеко за пределами ...оей страны? А ведь первую ...ди Азербайджана Мехрибан ...иеву знают действительно ... всем мире. И все же попы...аемся добавить некоторые ...трихи к портрету очень ...вестной и одновременно не ...акомой нам женщины.

С ОТКРЫТОЙ ДУШОЙ

В любой энциклопедии можно ...очитать, что **Мехрибан Алиева** - ...ербайджанский общественный и ...литический деятель, супруга пре...дента Азербайджана **Ильхама ...иева**, депутат Милли Меджлиса ...ербайджана, руководитель ра...чей группы по азербайджано-...ериканским межпарламентским ...язям, президент Фонда Гейдара ...иева и Фонда друзей культуры ...ербайджана, президент Феде...ции гимнастики Азербайджана, ...сол доброй воли ЮНЕСКО, ООН, ...К и ИСЕСКО. А что стоит за этим ...тусным списком? Что заставляет ...временную элегантную, необык...венно красивую женщину зани...ться благотворительной и обще...венной деятельностью? Только ... стремление «соответствовать» ...лжности мужа - нынешнего пре...дента Азербайджана Ильхама ...иева? С ее внешностью можно ...ло бы соответствовать, не участ...я во всех этих делах. Но, мне дума...ся, у любого человека есть опре...ленная планка, некий жизненный ...иентир, в соответствии с которым

С какой бы трибуны ни говорила Мехрибан Алиева, ее выступления всегда убедительны.

сострадания и милосердия. Это умение сопереживать, это умение протянуть руку помощи тому, кто в этой помощи нуждается, это альтруизм».

В любой своей деятельности, в том числе и на посту президента Фонда Гейдара Алиева, она старается опираться именно на эти принципы. Фонд Гейдара Алиева был создан в 2004 году, и с первых дней его работы были определены приоритетные направления деятельности: образование, здравоохранение, помощь молодому поколению, за-

Гейдара Алиева в нашем регионе? В контекст дружеских отношений между двумя государствами вписались реконструированная набережная Приволжского затона, парк имени Гейдара Алиева, новый мост Дружбы, детский игровой городок - любимое место отдыха астраханской ребятни, памятник равноапостольному князю Владимиру, установленный на благоустроенной площади вблизи одноименного храма, капитально отремонтированная средняя

Дочь Мехрибан Лейла не раз бывала в Астрахани по делам Фонда Гейдара Алиева.

жизнь, - говорит директор школы № 11 **Татьяна Тихомирова**. - Подарить этот праздник может только человек, обладающий щедрым и добрым сердцем. Президент Фонда Гейдара Алиева, Мехрибан Алиева, несомненно, такой человек. Спасибо ей за постоянное внимание к нашей школе».

ВЕТОЧКИ ДЕРЕВА

Говорят: «Скажи мне, кто твой друг, и я скажу, кто ты». Точно так же можно судить о человеке, зная, что представляют собой его дети. У четы Алиевых трое детей и уже четверо внуков. Все дети хорошо воспитаны и образованы, но о **Лейле Алиевой**, вице-президенте Фонда Гейдара Алиева, астраханцы знают не понаслышке. Несколько раз старшая дочь Мехрибан приезжала в Астрахань, и ее визиты

ГЛАВНАЯ Н...

В копилке Мех... немало престижны... году она удостоила... щина года». Мехриб... звание офицера Ор... Легиона. Она стала ... женщиной-кавалер... ной Орденом Руби... Супруга президент... получила эту нагр... народного фонда ... летия». Однако, ка... Мехрибан Алиева, б... дорожит российско... лотое сердце», вруч... роко проводимую ... ную деятельность. ... также межгосударс... в номинации «Звезд... Денежное вознагра... гающееся к этой пр... направила на разви...

## Açıq ürəklə

Hər bir ensiklopediyada oxumaq olar ki, Mehriban Əliyeva - azərbaycanlı ictimai və siyasi xadim, Azərbaycan Prezidenti İlham Əliyevin xanımı, Azərbaycan Milli Məclisinin deputatı, Azərbaycan-Fransa Parlamentlərarası Əlaqələr üzrə işçi qrupun rəhbəri, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiridir. Bəs bu statuslar siyahısının arxasında nə dayanır? Müasir, məlahətli, qeyri-adi dərəcədə gözəl qadını xeyriyyəçiliklə və ictimai fəaliyyətlə məşğul olmağa məcbur edən nədir? Təkcə həyat yoldaşının - Azərbaycan Prezidenti İlham Əliyevin vəzifəsinə "uyğun olmaq" istəyimi? Onun xarici görkəmi ilə bütün bu işlərdə iştirak etmədən də buna uyğun olmaq mümkün idi. Lakin mənə belə gəlir ki, hər bir insanın məqsədlərinin müəyyən yuxarı həddi, müəyyən həyat oriyentiri var. İnsan öz həyatını ona müvafiq qurur. Əgər birisi mənzil-maşın-əməkhaqqı şəklində firavanlıqla kifayətlənirsə, digəri üçün çox vacibdir ki, onun ətrafında xoşbəxt insanların sayı mümkün qədər çox olsun. Mehriban xanım məhz bu cür xadimlərdəndir. O, məhz bunu istəyir. Buna görə də mədəniyyət, səhiyyə, elm, təhsil, idman, ekologiya sahələrində çoxsaylı humanitar layihələrdə iştirak etməklə çox böyük sayda insana kömək edir. Bunu açıq ürəklə, təmiz qəlblə edir - bunu yalnız xeyirxah insanlar edə bilər. Yeri gəlmişkən, bu gözəl qadının adının mənası da "xeyirxahlıq, şəfqət, səmimiyyət, açıqlıq" deməkdir.

## Şəfqət prinsipləri əsasında

Mehriban xanım ixtisasca həkimdir, vaxtilə məşhur Seçenov İnstitutunu fərqlənmə diplomu ilə bitirib. İllər keçəndən sonra ona Seçenov adına birinci Moskva Tibb Universitetinin fəxri professoru adı verilib və Mehriban Əliyeva bu münasibətlə keçirilən təntənəli mərasimdəki çıxışında həkimlik peşəsi barədə çox qiymətli sözlər söyləyərək deyib: "Bu, ürək və qəlb peşəsidir. Bu, başqasının halına yanmaq və şəfqət elmidir. Bu, başqasının iztirablarına şərik olmaq bacarığı, köməyə ehtiyacı olan insana yardım əli uzatmaq bacarığı, altruizmdir".

O, özünün hər bir fəaliyyətində, o cümlədən Heydər Əliyev Fondunun prezidenti vəzifəsində də məhz bu prinsiplərə əsaslanmağa çalışır. Heydər Əliyev Fondu 2004-cü ildə yaradılıb. Fondun işinin ilk günlərindən onun fəaliyyətinin prioritet istiqamətləri müəyyən edilib: təhsil, səhiyyə, gənc nəslə kömək, ətraf mühitin qorunması, Azərbaycanın zəngin mədəni irsinin təbliği, mədəniyyətlərarası əməkdaşlıq sahəsində layihələr. Fondun dəstəyi ilə Azərbaycanın ucqar bölgələrində 200 müasir məktəb tikilib, səhiyyə sahəsində layihələr, o cümlədən ürək-damar xəstəliklərindən əziyyət çəkən, dayaq-hərəkət aparatında problemləri olan uşaqlara kömək layihələri həyata keçirilib, musiqi festivalları və idman bayramları təşkil edilir, istedadlı gənclər fəal dəstəklənir. Bütün bunlar Fondun ölkə daxilindəki fəaliyyətinin az bir hissəsidir. Lakin Heydər Əliyev Fondu xarici ölkələrdə - Pakistanda, Rumıniyada, İtaliyada, Fransada, Haitidə də layihələr həyata keçirir. Heydər Əliyev Fondunu Rusiya, xüsusən Həştərxan vilayəti ilə sıx münasibətlər bağlayır.

## Məhəbbət və minnətdarlıqla

Heydər Əliyev Fondunun dəstəyi ilə regionumuzda nə işlər görüldüyünü biz həştərxanlılar yaxşı bilirik. İki dövlət arasında dostluq münasibətləri kontekstinə Privoljye körfəzi sahil küçəsi, Heydər Əliyev adına park, yeni Dostluq körpüsü, uşaqlar üçün oyun şəhərciyi - Həştərxan uşaqlarının sevimli istirahət yeridir. Eyniadlı məbədin yaxınlığında abadlaşdırılmış meydanda məlaksima Knyaz Vladimirin abidəsi, əsaslı təmir edilmiş 11 nömrəli orta ümumtəhsil məktəbi, bu yaxınlarda ilk sakinlərini qəbul etmiş yeni gözəl uşaq bağçası, Nərimanov şəhərindəki park... Fondun bizim regionda həyata keçirdiyi və həyata keçirtməkdə davam etdiyi bütün bu dəyişikliklərin ilham mənbəyi Heydər Əliyevi həmişə məşhurlaşdıran xeyirxah işləri ləyaqətlə davam etdirən Mehriban Əliyevadır. Heydər Əliyevin adını daşıyan 11 nömrəli orta məktəbin şagirdləri və müəllimləri artıq neçə ildir ki, yay və qış tətillərini Bakıda keçirir, ən yaxşı şagirdlər Fonddan təqaüd alırlar.

Kişilər məni bağışlasın, amma dostluq münasibətlərinin bu cür davamını yalnız qadın təklif edə bilərdi. Mehriban xanım həmişə müxtəlif bölgələrdə uşaqların necə yaşamasını, onların nəyə ehtiyacı olmasına, bir qadın və ana kimi onun fikrincə bu uşaqları nə ilə sevindirmək olacağına fikir verir. 11 nömrəli məktəbin direktoru Tatyana Tixomirova deyir: "Bakıda keçirilən tətillər elə bir bayramdır ki, bizim uşaqlar onu bəlkə də ömürlük yadda saxlayacaqlar. Bu bayramı yalnız səxavətli və xeyirxah ürəkli insan hədiyyə edə bilər. Şübhə yoxdur ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva məhz belə insandır. Bizim məktəbə göstərdiyi daimi diqqətinə görə sağ olsun".

## Ağac budaqları

Məsəl var: "Dostunun kim olduğunu mənə de, mən sənin kim olduğunu deyim". Eyni qayda ilə birisinin uşaqlarını tanıyanda həmin adamın özü barəsində mühakimə yürütmək olar. Əliyevlər cütlüyünün üç övladı və artıq dörd nəvələri var. Bütün uşaqlar yaxşı tərbiyə və təhsil alıblar. Lakin həştərxanlılar Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı şəxsən tanıyırlar. Mehriban xanımın böyük qızı bir neçə dəfə Həştərxana gəlib və onun səfərləri həmişə regionun həyatında və iki ölkənin qarşılıqlı münasibətlərində mühüm hadisələrlə əlamətdar olub. Həştərxanlılar Leylanı əslində öz həmyerliləri hesab edirlər. Gözəl Leyla Fondun işində anasının əsas köməkçisidir. Əgər Mehriban xanım bizim regionda Fondun fəaliyyətinə nəzarət etməyi qızına həvalə edirsə, deməli, ona tam etibar edir. Etimad isə yalnız yaxın insanlara, sənin fəaliyyət xəttini qəbul edən, sənin hərəkətlərini bəyənən, birgə məqsəd və vəzifələri anlayan insanlara göstərilə bilər.

Mehriban xanım ləyaqətli qız tərbiyə edib, ona gözəllik və ağıl ilə bərabər, həm də laqeydlikdən uzaq ürək bəxş edib. Əliyevlərin üç övladı onları tanıyanların hamısına xeyirxahlıq və sevgi bəhrəsi verən bir ağacın budaqları kimidir. Mehriban xanımın analıq sevgisi əsas işini görüb: o, öz uşaqlarına insanları sevməyi və bu sevgini bölüşməyi öyrədib, çünki bu hiss olmasa xeyirxah işlər görmək mümkün deyil.

## Əsas mükafat

Mehriban Əliyevanın "sandığında" nüfuzlu mükafatlar az deyil. 2005-ci ildə o, "İlin qadını" adına layiq görülüb. Mehriban Əliyeva "Şərəf Legionu" ordeni ilə təltif edilib. O, dünyada "Yaqut Xaç" ordeni ilə mükafatlandırılmış ilk qadındır. Azərbaycan Prezidentinin xanımı bu mükafatı "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun alıb. Lakin Mehriban Əliyevanın özünün dediyi kimi o, həyata keçirdiyi geniş xeyriyyəçilik fəaliyyətinə görə ona təqdim edilmiş "Qızıl ürək" Rusiya mükafatını bütün başqa mükafatlardan artıq qiymətləndirir. Ona "Birlik ulduzları" nominasiyasında dövlətlərarası mükafat da verilib. Bu təltifə əlavə edilən pul mükafatını Mehriban xanım doğma Seçenov İnstitutunun elmi bazasının inkişafına yönəldib.

Onun çoxsaylı təltifləri arasında "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni də var. Azərbaycanın birinci xanımına bu ordeni 2014-cü ilin oktyabr ayında Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin təqdim edərək vurğulayıb ki, regionun Fond ilə əməkdaşlığı gözəl mehriban qonşuluq münasibətləri nümunəsidir. Bu nümunə sübut edir ki, müxtəlif millətlərdən olan insanlar, müxtəlif ölkələrin nümayəndələri bir dildə - sülh və dostluq dilində danışa bilərlər.

Mehriban xanımdan soruşsanız ki, onun üçün ən əsas təltif nədir, cavabında eşidərsiniz: insanların hörməti. Planetimizin müxtəlif guşələrindən minlərlə insan Mehriban xanıma həqiqətən çox qiymətli olan bu hədiyyəni bəxş edir - onun tükənməz xeyirxahlığına, səmimiyyətinə və dünyamızı daha yaxşı, daha təmiz və daha gözəl etməyə çalışdığına görə.

Avqustun 26-sı Mehriban Əliyevanın doğum günüdür. Adətən qadınlar öz yaşlarını gizlədir. Biz də bu ənənəni pozmayacağıq, hərçənd hansı tarixi desək, ona inanmaq çətindir. Mehriban xanım çox gənc görünür, o, qeyri-adi dərəcədə gözəldir (bəlkə də gəncliyində olduğundan da gözəldir), onun gözlərindən nur yağır. Gözlərin nurlu olması isə xoşbəxtliyin ən dəqiq əlamətidir. Qoy bu xoşbəxtlik uzun müddət davam etsin! Doğum gününüz mübarək, Mehriban xanım!

***Marina Parenskaya***

# Rusiyalı siyasətçilər və mədəniyyət xadimləri Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik ediblər




Российские политические и культурные деятели поздравили Мехрибан Алиеву с днем рождения

26 Авг в 8:00

Российские политические и культурные деятели поздравили сегодня первую леди Азербайджана, президента Фонда Гейдара Алиева, посла доброй воли ЮНЕСКО и ИСЕСКО, депутата Милли Меджлиса **Мехрибан Алиеву** с днем рождения.

Так, заместитель председателя Комиссии Российской Федерации по делам ЮНЕСКО, экс-президент Северной Осетии, кавалер ордена "Дружба" Азербайджана **Александр Дзасохов** в первую очередь подчеркнул, что Мехрибан Алиева пользуется огромным уважением у всей творческой интеллигенции многонациональной России.

"Мехрибан Алиева - выдающаяся представительница своего народа во всем мире. Ее знают в ЮНЕСКО, в ООН, во многих государствах. Эта ее известность основывается на ее глубоком понимании важности

"Vestnik Kavkaza" xəbər verir ki, rusiyalı siyasətçilər və mədəniyyət xadimləri Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik ediblər. RF-nin UNESCO məsələləri üzrə komissiyasının sədr müavini, Şimali Osetiyanın sabiq prezidenti, Azərbaycanın "Dostluq" ordeni ilə təltif edilmiş Aleksandr Dzasoxov vurğulayıb ki, Mehriban Əliyeva çoxmillətli Rusiyanın bütün yaradıcı ziyalılarının böyük hörmətini qazanıb.

O deyib: "Mehriban Əliyeva bütün dünyada öz xalqının görkəmli nümayəndəsidir. Onu UNESCO-da, BMT-də, bir sıra dövlətlərdə tanıyırlar. Birinci xanım Mehriban Əliyevanın məşhurluğu onun Azərbaycan milli mədəniyyətini qoruyub saxlamağın vacibliyini dərindən anlamasına, müxtəlif mədəniyyətlərin və ənənələrin birgə mövcud olmasına və bir-birini zənginləşdirməsinə göstərdiyi səmimi və çox uğurlu köməyə və qayğıya, insanın, ailənin və xalqın baza dəyərlərini anlamasına əsaslanır".

A.Dzasoxovun fikrincə, Mehriban Əliyeva Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafında xüsusi rol oynayır. Aleksandr Dzasoxov bildirib: "Bizim əməkdaşlığımızın uğuru dostcasına dərin insani münasibətlər formalaşmasına əsaslanır və Mehriban Əliyeva bu əməkdaşlığın memarlarından biridir. Mən Rusiyanın UNESCO məsələləri üzrə komissiyasının sədr müavini və onlarca iri beynəlxalq forumların iştirakçısı kimi bilirəm ki, onun adı həmişə maraq doğurur. O, UNESCO-nun xoşməramlı səfiri kimi yüksək ada layiq görülmüş şəxsiyyətlər sırasına aiddir. Biz öz aramızda tez-tez deyirik ki, Bakı iri regional və beynəlxalq mədəni forumlar keçirilən mərkəzlərdən birinə çevrilib. Məhz Mehriban Əliyeva bu işə öz töhfəsini verir. Mən iştirak etdiyim çoxsaylı tədbirlərdə Mehriban Əliyevanı öz ölkəsinin həqiqi vətənpərvəri olduğunu görmüşəm".

RF-nin UNESCO məsələləri üzrə komissiyasının sədr müavini deyib: "O, BMT-nin və UNESCO-nun qərargahlarında keçirilən çoxsaylı diskussiyalarda Moskvada bir neçə iri tədbirdə, o cümlədən idmanın inkişafına həsr edilmiş tədbirlərdə parlaq çıxışlar edib. Yadımdadır, birinci Avropa Oyunları ərəfəsində Mehriban Əliyeva sözün həqiqi mənasında mədəniyyət, xüsusən bədən tərbiyəsi və idman barədə ölçülüb-biçilmiş, inandırıcı və yerinə düşən xoş sözlər dedi. Yaşlı nəslin nümayəndəsi və Azərbaycanın "Dostluq" ordeninə layiq görülmüş insan kimi mən də Azərbaycanın birinci xanımına doğum günü münasibətilə ünvanlanmış çoxsaylı səmimi təbriklərə qoşuluram".

Məşhur teleaparıcı, rejissor və aktyor Yuli Qusman da Mehriban Əliyevanın yüksək insani keyfiyyətlərini vurğulayaraq deyib: "Mehriban Əliyeva ağıllı, gözəl, istedadlı, qeyri-adi, heyrətamiz dərəcədə güclü qadındır. O, dövlət xadimi, ana, birinci xanım və Heydər Əliyev Fondunun layiqli rəhbəri keyfiyyətlərini özündə birləşdirir. Onun rəhbərliyi ilə birinci Avropa Oyunları və "Eurovision" mahnı müsabiqəsi parlaq səviyyədə keçirildi. Əlbəttə, bunu demək asan, amma etmək çətindir. Azərbaycan Prezidenti İlham Əliyev kimi son dərəcə mədəni insanla birlikdə onlar, mənə belə gəlir ki, bütün BMT məkanında öz pozitivliyi və istedadı ilə fərqlənən bir cütlükdür".

Y.Qusman vurğulayıb ki, Bakı sadəcə yenidən qurulmayıb, o özünün bütün üstünlüklərini qoruyub saxlamaqla tamamilə müasir Qərb şəhəri görkəmi alıb. Yuli Qusman deyib: "Bakı möhtəşəm şəhərdir, lakin dəyişən təkcə o deyil, onun bütün ətrafı, o cümlədən bizim "Qorxma, mən səninləyəm! 1991" filmini çəkdiyimiz Gürcüstan sərhədindəki dağlıq rayonlar da dəyişib. Bizim bütün çəkiliş qrupu, bütün kollektiv bu tarixi gözəl diyarda gördüklərinə heyran olmuşdu. Bu dəyişikliklərdə Mehriban Əliyevanın çox böyük rolu olub".

Rejissor sonda deyib: "Mədəniyyət və incəsənət xadimi kimi həm öz adımdan, həm də bütün dünyada - Rusiyada, Amerikada, Avropada, Asiyada yaşayan və işləyən bütün bakılıların adından Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik etmək və sadəcə demək istəyirəm ki, Vətəni sevmək onunla fəxr etmək böyük şərəfdir, ona görə ki, Mehriban Əliyeva kimi heyrətamiz birinci xanım var".

Rusiyalı Diplomatlar Assosiasiyasının sədr müavini Andrey Baklanov Mehriban Əliyevanı doğum günü münasibətilə səmimi təbrik edib və Azərbaycanın birinci xanımının Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsi üçün apardığı işə görə ona ürəkdən təşəkkür edib.

Andrey Baklanov daha sonra deyib: "Mən onun iştirak etdiyi tədbirlərdə olmuşam. Əlbəttə, onun fəaliyyəti çox güclü təsir bağışlayır. 2015-ci ildə Bakıda birinci Avropa Oyunlarının təşkilat komitəsinin rəhbəri qismində bu möhtəşəm idman yarışını təqdim edərkən Mehriban Əliyeva oyunların keçirilməsi ideyasını çox uğurlu şəkildə əsaslandırdı, idmanın bu istiqamət üzrə inkişafının perspektivlərini göstərdi və ümumiyyətlə parlaq çıxış etdi. Bu çıxış orada iştirak edənlərin hamısına güclü təsir bağışladı. Onun nitqi siyasi cəhətdən ölçülüb-biçilmiş və çox gözəl idi. Mehriban Əliyevanın məzmunlu ictimai fəaliyyəti ölkələr və xalqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə yönəlib".

A.Baklanov Mehriban Əliyevanı təbrik edərək onun işinə heyran olduğunu bildirib, Rusiya-Azərbaycan əlaqələrinin və dostluğunun inkişafı kimi nəcib məqsədlərə xidmət edən fəaliyyətində ona uğurlar arzulayıb.

## Gənclər və idman naziri Qubada şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib

Avqustun 26-da gənclər və idman naziri Azad Rəhimov Quba şəhərində şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Quba, Qusar, Siyəzən, Şabran və Xaçmaz rayonlarından olan 30-a yaxın vətəndaş iştirak edib. Vətəndaşlar tərəfindən edilən müraciətlər əsasən gənclər, idman, tikinti sahələri, sahibkarlığın inkişafı ilə bağlı kreditlərin verilməsi və işlə təminatla əlaqədar olub. Gənclər sahəsində edilən müraciətlər sırasında qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay istirahət düşərgələrinin təşkili, gənclər mərkəzlərinin müvafiq avadanlıqlarla təmin edilməsi və fəaliyyəti ilə bağlı məsələlər yer alıb. Fəxri adların verilməsi, idman mərkəzlərinin idman avadanlıqları ilə təmin olunması, Olimpiya İdman komplekslərinin, idman qurğularının tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı idman sahəsində edilən müraciətləri əhatə edib. Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb olunan məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.



# İstanbulda Sultan Səlim Yavuz asma körpüsünün açılış mərasimi olub

*Mərasimdə Azərbaycan nümayəndə heyəti də iştirak edib*



Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Milli Məclisin komitə sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və digər rəsmi şəxslər daxildir. Körpünün rəmzi açılışını bildirən lent kəsildi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Baş nazir Binəli Yıldırım, parlamentin sədri İsmail Kahraman, Türkiyənin on birinci Prezidenti Abdulla Gül, sabiq Baş nazir Əhməd Davudoğlu və digər şəxslər açılış mərasimində çıxış ediblər.

Çıxışlarda AKP hakimiyyəti dövründə Türkiyənin əldə etdiyi nailiyyətlərdən, ölkədəki ictimai-siyasi vəziyyətdən, Yavuz Sultan Səlim körpüsünün istifadəyə verilməsinin əhəmiyyətindən, perspektiv layihələrdən və digər məsələlərdən bəhs olunub. Diqqətə çatdırılıb ki, istifadəyə verilən dünyanın ən enli asma körpüsü AKP hakimiyyətinin əldə etdiyi böyük uğurlar sırasındadır. Məlumat verilib ki, IX Osmanlı padşahı Yavuz Sultan Səlimin adı verilən körpünün eni 59 metr, uzunluğu 1408 metrdir. Bu, dünyanın ən geniş və uzun rels sisteminə malik asma körpüsüdür. Avropa ilə Asiya qitəsini birləşdirən üçüncü körpünün üzərində avtomobillərin hərəkəti üçün 8 hərəkət zolağı və iki dəmiryol xətti salınıb. Tikintisinə 3 milyard ABŞ dolları məbləğində vəsait xərclənən bu körpüdə Avropa ilə Asiya arasında hərəkət edən avtomobillərin keçidi bir müddət pulsuz olacaq.





***Avqustun 26-da İstanbulda dünyanın ən enli asma körpüsünün istifadəyə verilməsi ilə bağlı rəsmi açılış mərasimi olub. Mərasimdə Azərbaycanı Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.***

# Səhiyyə naziri Şabranda vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən dövlət orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir. Qəbul zamanı vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli istiqamətində tədbirlər görülür. Avqustun 26-da səhiyyə naziri Oqtay Şirəliyev qəbul cədvəlinə uyğun olaraq Şabran Rayon Mərkəzi Xəstəxanasında vətəndaşlar üçün qəbul keçirib. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı nazir Xızı, Siyəzən, Xaçmaz, Quba və Qusar rayonları sakinlərinin sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib. Vətəndaşların müraciətində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.



# Siyavuş Novruzov: "Konstitusiyaya əlavə və dəyişikliklər zərurətdən irəli gəlir"



"Konstitusiyaya əlavə və dəyişikliklər zərurətdən irəli gəlir. Bu dəyişikliklərin çox böyük hissəsi insan hüquq və azadlıqları ilə bağlıdır. Digər tərəfdən, dövlət idarəçilik aparatının təkmilləşdirilməsi üçün Konstitusiyaya dəyişikliklərin zərurəti yarandı. Azərbaycan sosial dövlətdir. Sosial dövlət olduğu üçün sosial ədalət prinsipi əsas prinsiplərdən biridir. Sosial ədalət prinsipinin həyata keçirilməsi üçün çevik idarəçilik sisteminin daha da təkmilləşdirilməsi zərurəti ortaya çıxıb. Həmçinin, insan hüquq və azadlıqlarını məhdudlaşdıran yaş zenzinin aradan qaldırılması vətəndaşlarımızın özlərinin sərbəst seçib-seçilmək hüququnu sərbəst şəkildə həyata keçirməsinə imkan yaradacaq. 18 yaşına çatmış bir insanın istənilən bir məsələyə münasibət bildirməsinə məhdudiyyətin qoyulması tarazlığın pozulmasına gətirib çıxarırdı. Azərbaycanda 5 milyona yaxın seçici var. 3 milyona yaxını 35 yaşa qədər olan vətəndaşlardır. Yəni, 3 milyona yaxın insana digər rəhbər vəzifələrə seçib, seçilmək hüququ veriləcək". Bu fikirləri Trendə musahibəsində Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov bildirib.

Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini bildirib ki, bəzi qüvvələr Konstitusiyanı qərəzli şərh edirlər: "Həmin qüvvələrin hüquqşünasları əlavə və dəyişikliklərdə doğru olmayan hər hansı məqamlarla bağlı tutarlı hüquqi fakt ortaya qoya bilməyiblər.

S.Novruzov Azərbaycanda vitse-prezidentlik institutunun yaradılmasını zəruri hesab edir: "Azərbaycan yerləşdiyi coğrafi məkan bütün dünya ölkələri ilə əlaqə qurulması üçün vacib strateji əhəmiyyətli nöqtədir. Bu baxımdan Azərbaycanın təmsilçiliyi məsələsi çox aktuallaşıb. Keçmişdə 10 ilə görülən işlər indi bir neçə aya, bir neçə günə görülür. Dünya operativ idarəetmə sisteminə keçib. Vitse-prezidentlik institutunun yaradılması cənab Prezidentin həyata keçirdiyi islahatların surətinə uyğunlaşdırılmasıdır. Vitse-prezidentlik institutu təmsilçilik baxımından yüksək instansiya hesab olunur. İdarəçilik sistemi getdikcə genişlənir. Hər hansı beynəlxalq konfranslarda, tədbirlərdə Azərbaycanın təmsil olunması, bunun hamısını cənab Prezidentin çatdırması çətin məsələdir. Elə tədbirlər var ki, orada Azərbaycanı vitse-prezidentlər təmsil etməlidir, o cümlədən, daxildə olan idarəçilik sistemində operativ idarəçiliyin həyata keçirilməsi üçün bu institut yaradılmalıdır. Yəni, dünyada idarəetmə sistemi daha operativləşdiyindən vitse-prezidentlik institutunun yaradılmasına ehtiyac var. Vitse-prezidentlik institutunun yaradılmasından sonra Azərbaycanın ali icra orqanlarında struktur dəyişiklikləri olacağı gözlənilir. Azərbaycanda kimlərin vitse-prezidentliyə şanslı olmasına gəlincə, bu səlahiyyət cənab Prezidentə aiddir. Cənab Prezident kimi məsləhət, layiq biləcəksə, təbii ki, o şəxslər də vitse-prezident kimi fəaliyyət göstərəcək".

# Səudiyyəli nazir: Neftin hasilat miqdarının "dondurulması" müsbət nəticələr verə bilər

Neftin hasilat miqdarının "dondurulması" müsbət nəticələr verə bilər. AZƏRTAC xəbər verir ki, Səudiyyə Ərəbistanının neft naziri Xalid əl-Falih bu fikirdədir. Nazir neftin istehsal miqdarının "dondurulması"nın reallaşacağı təqdirdə müsbət nəticələrin əldə olunacağı qənaətindədir. Qeyd edək ki, avqustun 25-də İran İslam Respublikasının neft naziri Bijən Namdar Zəngənə Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv ölkələrin nümayəndələrinin Əlcəzairdə keçiriləcək toplantısında iştirak edəcəyini açıqlayan son OPEC ölkəsi rəsmisi olub. OPEC-ə üzv və digər böyük neft istehsalçısı ölkələrin nümayəndələrinin sentyabrın 26-28-də Əlcəzairdə keçiriləcək Beynəlxalq Enerji Forumu çərçivəsində danışıqlar aparması gözlənilir. Danışıqlarda neftin hasilat miqdarının "dondurulması"nın əsas müzakirə mövzusu olacağı bildirilir.



# Mehriban Əliyeva - hər bir azərbaycanlı xanıma örnək olan Birinci Xanım!

***Mehriban Əliyeva - Azərbaycanın "Fisrt Lady"si (Birinci Xanımı), millət vəkili, Azərbaycan-Fransa Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, fəlsəfə elmləri doktoru və hər bir azərbaycanlı xanıma örnək olan 3 övlad anası. Bu gün Onun doğum günüdür və Mehriban xanımın fəaliyyətini, Azərbaycan dövlətinə və xalqına xidmətini yaxından izləyənlər təbriklərə qoşulur, öz arzularını çatdırırlar.***



**Dilarə Cəbrayılova, millət vəkili:**

- Mehriban xanım Əliyeva bu gün Azərbaycan mədəniyyətinin fədakar elçisidir, xalqımızı, mədəniyyətimizi dünyada layiqli şəkildə tanıdır. O, bu gün Qarabağ həqiqətlərinin yorulmaz təbliğatçısıdır və yüzlərlə gənc xanım ziyalı da ondan örnək alır. O hər zaman Cənab Prezidentin yanında olaraq ölkəmizin inkişafı üçün əlindən gələni əsirgəmir. Biz Mehriban Əliyevanın xidmətlərini göz önündə canlandıranda, görürük ki, o, bu gün təkcə Azərbaycan üçün deyil, Türk Dünyası, Müsəlman Dünyası və ümumiyyətlə, dünyamız və insanlıq üçün Türk və Müsəlman Dünyasının şəriksiz qadın lideridir! O, ağlı, həyat tərzi və fəaliyyəti ilə nəinki ölkəsində, eləcə də Avropada, Qərbdə və təbii ki, Şərqdə böyük nüfuz qazanıb. Bəzi xarici mətbu orqanları bir çox birinci xanımları Onunla müqayisə edir və üstünlüyü Mehriban Əliyevaya verirlər. Çünki O, təkcə gözəlliyi, zövqü və Prezidentin həyat yoldaşı olması ilə deyil, səmərəli və humanist fəaliyyəti ilə də dünyada artıq geniş şöhrət sahibidir. Xarici səfərlər zamanı Onun Azərbaycan haqqında nə qədər yüksək fikir formalaşdırdığının dəfələrlə şahidi olmuşuq.

Mehriban xanım Əliyeva yorulmaz fəaliyyətini beynəlxalq konfranslarda həm təşəbbüsçüsü, həm də təşkilatçı olaraq da davam etdirir. O, həm də fəaliyyəti ilə Mədəniyyətlər və Sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu, eyni zamanda, qadınların bu sahədə nə qədər böyük rol oynaya biləcəyini göstərir. Onun təşəbbüsü ilə "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Azərbaycanda məscidlərlə yanaşı, kilsələr və sinoqoqlar da təmir olundu və insanların ibadət etməsi üçün yaxşı şərait yaradıldı. Ümumiyyətlə, Mehriban Əliyevanın keçdiyi həyat yoluna nəzər saldıqda, qısa zaman ərzində gördüyü böyük işlər insanı valeh edir. Bu, sadəcə, seçilmişlərə verilən bir istedad, ağıl və güc sayəsində mümkündür. Mən də bu sevinc hisslərinə qoşulur, bu böyük ürəkli, hər bir azərbaycanlı xanıma örnək olan Mehriban xanımı doğum günü münasibətilə ürəkdən təbrik edirəm!



**Mehriban Abasquliyeva, YAP Sabunçu rayon təşkilatının sədri:**

- Bəlli olduğu kimi, hələ 2004-cü ildə Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub-saxlanılması və inkişaf etdirilməsi sahəsində yorulmaz səylərinə görə Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı Səfiri adına layiq görülüb. Ümumiyyətlə isə, O, gördüyü işlərə görə YUNESKO-nun ən fəal xoşməramlı səfirləri sırasındadır. Onun fəaliyyəti nəticəsində YUNESKO-nun qərargahında Azərbaycanın böyük şəxsiyyətlərinin yubileyləri qeyd olunur, Azərbaycan mədəniyyətini təbliğ edən çoxsaylı tədbirlər keçirilir. YUNESKO-nun baş katibinin iştirakı ilə Azərbaycan Respublikası ilə təşkilat arasında təhsil sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb. Bakıda YUNESKO ilə birlikdə təhsil sahəsində beynəlxalq konfrans keçirilib. Habelə, Bakıda möhtəşəm Beynəlxalq Muğam Mərkəzi yaradılıb. Azərbaycanın ecazkar milli musiqisinin inkişafı, dünyaya tanıdılması istiqamətində ciddi addımlar atılıb. Azərbaycanda dünyanın müxtəlif bölgələrindən gələn muğam ifaçılarının iştirakı ilə Beynəlxalq Muğam Müsabiqəsi keçirilib. Muğamın daha geniş təbliği nəticəsində dünya bu böyük musiqi ilə daha yaxından tanış olmaq imkanı qazanıb. Azərbaycanın qədim musiqisi olan əsrarəngiz muğam YUNESKO-nun Qeyri-Maddi İrs Siyahısına salınıb. Bunlar çox ciddi çalışmaların bəhrəsidir və tarixi mahiyyət daşıyır. Azərbaycan qadınını dünyanın hər yerində ən yüksək səviyyədə təmsil edən Mehriban xanımı hər zaman qürurla izləmişəm. Dünyanın hər yerində onun haqqında xoş sözlər eşidəndə, qürur hissi keçirirəm ki, bizim belə Birinci Xanımımız var! Çünki dünyada, sadəcə, Birinci Xanım olduğu üçün tanınanlardan deyil, daha çox öz əməlləri ilə tanınan bir lider xanımdır Mehriban Əliyeva! Bu gün O dünyanın lider xanımları arasında özəl yeri, özü və sözü olan bir xanımdır - O bunları gözəl düşüncə, gözəl fikir, gözəl əməlləri ilə qazanıb.

Onun doğum günüdür və mən Mehriban xanımı hər bir azərbaycanlı kimi səmimi-qəlbdən təbrik edir, Allahdan can sağlığı diləyirəm.



**Təranə Kərimova, YAP Səbail rayon təşkilatı qadınlar şurasının sədri:**

- Mehriban xanım Əliyevanın Azərbaycanın haqq və ədalətli səsinin dünyaya çatdırılmasında çox böyük xidmətləri vardır. YUNESKO xətti ilə keçirilən tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasını qeyd etmədiyi bir çıxışını belə xatırlamaq çətindir. O, təkcə çıxışlarında deyil, rəhbərlik etdiyi təşkilatların fəaliyyətində də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində böyük işlər görür. Mehriban Əliyevanın rəhbərlik etdiyi fond erməni iftiralarını, Azərbaycan həqiqətlərini, Xocalı soyqırımının, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi vəhşilikləri, təkcə Azərbaycana deyil, bütün insanlığa məxsus olan dini, tarixi və mədəni abidələrin dağıdılmasını özündə əks etdirən, bir çox dillərdə kitablar nəşr edirir, filmlər hazırlayıb dünya ictimaiyyətinə doğru bilgilərin çatdırılması istiqamətində misilsiz işlər görür.

O, YUNESKO ilə yanaşı, həm də müsəlman dünyasını özündə birləşdirən İslam Əməkdaşlıq Təşkilatının ən böyük qurumu olan İSESKO-nun da xoşməramlı səfiridir və bu vəzifədə də müsəlman dünyasını layiqincə təmsil edir. Sivilizasiyalararası, mədəniyyətlərarası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqətə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsilə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də İSESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Mehriban Əliyevanın ötən illər ərzində gördüyü işlər təşkilat tərəfindən ən yüksək səviyyədə qiymətləndirilir və aldığı mükafatlar bunun bariz göstəricisidir. Onu doğum günü münasibətilə təbrik edir, can sağlığı və işlərində müvəffəqiyyətlər arzulayıram.

*R.KAMALQIZI*



## Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Naftalanda vətəndaş qəbulu keçirib

Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq, Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov avqustun 26-da Naftalan şəhərində vətəndaş qəbulu keçirib. Qəbulda Naftalan şəhərinin, Goranboy, Bərdə, Ağdam, Tərtər, Xocavənd və Laçın rayonlarının sakinlərinin müraciətlərinə baxılıb. Komitədən AZƏRTAC-a bildirilib ki, daşınmaz əmlakın qeydiyyatı sahəsinə aid olan müraciətlər fərdi həyət evi, mənzillər, sovet dövründə kolxoz və ya sovxozlar tərəfindən verilmiş həyətyanı torpaq sahələrinə çıxarış, texniki pasport və digər sənədlərin alınması ilə bağlı olub. Vətəndaşların bir qismi özəlləşdirməyə çıxarılmış dövlət əmlakının, icarə əsasında istifadə etdiyi daşınmaz əmlak obyekti və ya torpaq sahəsinin özəlləşdirilməsi ilə əlaqədar müraciət edib. Pay torpaqlarının, kənd təsərrüfatı təyinatlı torpaqların dövlət reyestrində qeydiyyatı, belə torpaqlarda sərhədlərin dəqiqləşdirilməsi məsələləri ilə bağlı müraciətlər də dinlənilib.

Qəbulda səsləndirilən bir sıra müraciətlər komitə sədri tərəfindən verilən göstərişlər nəticəsində dərhal həllini tapıb. Müraciətlər və suallarla bağlı vətəndaşlara mövcud qanunvericiliyin tələbləri və zəruri prosedurlar izah olunub. Araşdırılması vacib olan müraciətlər isə qeydiyyata alınıb.

Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi tədbirlərindən söz açan komitə sədri Azərbaycanda böyük özəlləşdirmə prosesinə start verildiyi, özəlləşdirmə prosesinin sürətləndirilməsində mühüm yeniliklərin və müasir yanaşmaların tətbiqini vurğulayıb. Qeyd olunub ki, bu tədbirlər Prezident İlham Əliyevin "Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 19 iyul tarixli Fərmanına və dövlət başçısının bu sahədəki digər tapşırıqlarına uyğun olaraq həyata keçirilir. Bildirilib ki, komitə qabaqcıl dünya standartlarına uyğun özəlləşdirmə prosesini reallaşdırmaq üçün uğurlu beynəlxalq təcrübəni nəzərdən keçirib. Daha səmərəli, operativ və şəffaf özəlləşdirmə prosesinin həyata keçirilməsi, özəlləşdirmənin elektron vasitələrlə geniş ictimaiyyətə çatdırılması məqsədilə komitə tərəfindən əhəmiyyətli addımların atıldığı, yeni Özəlləşdirmə Portalının yaradıldığı və investorların, vətəndaşların və maraqlı tərəflərin istifadəsinə verildiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, artıq ƏMDK tərəfindən ilkin mərhələdə 138 dövlət əmlakının özəlləşdirilməsi barədə hərraclar elan edilib. Mərhələli şəkildə çoxlu sayda dövlət müəssisə və obyektlərinin qarşıdakı dövrdə özəlləşdirməyə çıxarılacağı bildirilib.

Qəbulda komitə sədri, həmçinin diqqətə çatdırıb ki, özəlləşdirmə prosesində mühüm yenilik kimi Özəlləşdirmə Portalı üzərindən onlayn məslhət almaq imkanları da yaradılıb. Bu yenilik vasitəsilə istənilən yerli və ya xarici investor, fiziki və ya hüquqi şəxs özəlləşdirmə ilə bağlı istənilən sualı komitəyə ünvanlaya və qısa zamanda ətraflı məlumat ala bilir. Eyni zamanda, oxşar hüquqi məslhət xidmətləri də daşınmaz əmlakın qeydiyyatı sahəsində də göstərilir. İstənilən vətəndaş hər hansı hüquqi əməliyyat aparmazdan əvvəl Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarəsində təmənnasız olaraq hüquqi yardımlardan faydalana bilər.

Qəbulda vətəndaşlara göstərilən xidmətlərdə rahatlıq, şəffaflıq və əlçatanlıq prinsiplərinin gücləndirilməsi məqsədilə həyata keçirilən sosial layihələrin əhəmiyyəti də qeyd olunub. Məmnunluğun artırılması məqsədilə Bakı və regionlarda "Kütləvi çıxarış" kampaniyası və mobil ofis xidmətlərinin intensiv həyata keçirildiyi, elektron, onlayn və SMS xidmətlərin əhalinin aktiv istifadəsində olduğu vurğulanıb. Qəbul günü birbaşa müraciət edən vətəndaşlar da komitə sədri tərəfindən qəbul edilib və müraciətlərinə baxılıb. Qarşıdakı dövrdə də respublikanın regionlarında belə vətəndaş qəbullarının keçirilməsi davam etdiriləcək.

# "Biz həyatə girəndə partlayış baş verdi"

## *Taleh Bağırovun tərəfdarları polisləri silahla qarşılayıb*



Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində Taleh Bağırov, Fuad Qəhrəmanlı və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. Məlumata görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən Abbas Hüseynov hakimdən Bakı ağır Cinayətlər Məhkəməsinin sədri Mahmud Nəbiyevə şikayət yazdığını bildirib. /apa/ Hakim şikayəti aidiyyəti üzrə çatdıracaqlarını deyib. Daha sonra vəkillər təqsirləndirilən şəxslərin saxlanılandan sonra işgəncə verilməsi ilə haqqında tibbi ekspertizanın keçirilməsi, Şamil Abduləliyevin vəkili Zibeydə Sadıqova isə onun bədənində olan güllələrin çıxarılması barədə vəsatət qaldırıb. Prokuror Nəsib Bayramov isə bildirib ki, vəsatətlər əsassız olduğundan təmin edilməməlidir. Məhkəmə vəsatətləri təmin edib.

İclasda Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşı Elçin Tağıyev sualları cavablandırıb. Vəkil Elçin Sadıqov ondan soruşub ki, bütün polislər zirehli gödəkcə geyinmişdilərsə, ölən polislərdən birinin qarnına güllə necə dəyib? Şahid özünün gödəkcə geyindiyini, digərlərindən isə xəbəri olmadığını deyib. Vəkil Yalçın İmanov ondan polislərdə qumbara olub-olmamasını soruşub. Şahid polislərdə qumbara olmadığını deyib. Proses günün ikinci yarısında davam edəcək.

Qeyd edək ki, T. Bağırov Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsinin 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.12, 29,120-ci (qəsdən adam öldürməyə cəhd) maddəsinin 29, 120. 2.1, 29,120.2.3, 29, 120.2.4, 29,120.2.7, 29, 120. 2. 12, 228.3-cü (qanunsuz olaraq odlu silah əldə etmə), 228.4-cü (qanunsuz olaraq silah gəzdirmə) və digər maddələri ilə ittiham olunur. Ötən il noyabrın 26-da hüquq-mühafizə orqanlarının əməkdaşlarının Bakının Nardaran qəsəbəsində keçirdikləri xüsusi əməliyyat zamanı T. Bağırov da daxil olmaqla 60-dan çox şəxs saxlanılıb. Həmin şəxslərdən bir neçəsinin cinayət işi digərlərindən ayrılaraq Sabunçu rayon Məhkəməsinə göndərilib, barələrində müvafiq hökmlər çıxarılıb.

AXCP sədrinin müavini F. Qəhrəmanlı isə ötən il dekabrın 8-də həbs edilib. O, Cinayət Məcəlləsinin 281-ci (dövlət əleyhinə açıq çağırışlar), 283-cü ( milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) və 220.2-ci (hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) maddələri ilə ittiham olunur.

# AVCİYA referendumla bağlı uzunmüddətli müşahidənin ilkin hesabatını ictimaiyyətə təqdim edib

Avqustun 26-da Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi ilə bağlı uzunmüddətli müşahidənin ilkin hesabatını ictimaiyyətə təqdim edib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən AVCİYA-nın sədri Məhərrəm Zülfüqarlı Azərbaycanda həm Sovet hakimiyyəti illərində, həm də dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə müxtəlif məsələlərlə bağlı keçirilən referendumlardan danışıb. Qeyd edib ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı (18 oktyabr 1991-ci il) qəbul olunduqdan sonra ölkə üzrə 5 referendum keçirilib və konstitusiya əlavə və dəyişikliklər edilməsi haqqında sentyabrın 26-na təyin olunmuş referendum sayca 6-cı ümumxalq səsverməsidir.




Vurğulanıb ki, AVCİYA qarşıdakı referendumla bağlı uzunmüddətli müşahidəsini həyata keçirir. Assosiasiya Mərkəzi Seçki Komissiyasına müraciətləri, imzatoplama kampaniyası və təşviqat qruplarının qeydə alınma proseduru, seçici siyahıları, referendumla bağlı qanunverici baza, referendum ərəfəsində ölkədəki siyasi mühit, MSK və aşağı seçki komissiyalarının fəaliyyəti, təşviqat kampaniyası və referendum gününün monitorinqin təşkili kimi genişmiqyaslı fəaliyyətin icrasına iyunun 26-dan başlayıb. Sentyabrın 20-də aralıq hesabat ictimaiyyətə təqdim ediləcək. Referendum günü müşahidə və referendumun nəticələri ilə bağlı ilkin rəy sentyabrın 27-də, yekun hesabat isə oktyabrın 10-da açıqlanacaq.

Məlumat verilib ki, hazırkı ilkin hesabat iyulun 26-dan avqustun 26-dək olan dövrü əhatə edir. Burada Azərbaycan Respublikasında keçirilən referendumlar haqqında məlumatlar, referendum qabağı siyasi mühitin təhlili, söz və mətbuat azadlığının vəziyyəti, referendum administrasiyasının fəaliyyəti, iki radio, doqquz qəzet və iki informasiya agentliyinin monitorinqi əksini tapıb. Müsbət haldır ki, monitorinqi aparılan 13 KİV-in hamısında siyasi yönümündən asılı olmayaraq referendumla bağlı müsbət yazılar verilib, həmçinin neytral məlumatlar geniş yer alıb. Bunu da ölkədəki demokratik mühitin göstəricisi hesab etmək olar.

# Antikorrupsiya Yay Məktəbinin açılışı olub




Avqustun 26-da Azərbaycan Antikorrupsiya Akademiyasının (AZAKA) Antikorrupsiya Yay Məktəbinin açılışı olub. AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən AZAKA-nın keçid qrupunun üzvü, Milli Məclisin deputatı Vüsal Hüseynov akademiyanın bir sıra istiqamətlərdə fəaliyyət göstərəcəyini deyib. Vüsal Hüseynov bildirib ki, həmin fəaliyyət istiqamətlərindən biri də antikorrupsiya sahəsinə maraq göstərən şəxslər üçün yay məktəbi formatında olan məktəblər olacaq. Burada korrupsiya ilə mübarizə metodları, təcrübələr müzakirə ediləcək. Bu, Akademiyanın ilk yay məktəbidir. Məktəbə kifayət qədər böyük maraq var. Yay məktəbinə 35 iştirakçı müsabiqə əsasından seçilib. Bunlar respublikanın müxtəlif regionlarından olan gənclərdir. Ümid edirəm ki, bu təlim gözləntiləri doğruldacaq, bu sahədə müəyyən biliklərin qazanılmasına şərait yaradacaq.

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Korrupsiyaya qarşı mübarizə üzrə komissiyanın üzvü Əli Hüseynli Azərbaycan Antikorrupsiya Akademiyasının bu təşəbbüsünün heç də təsadüfi olmadığını deyib. Bildirib ki, korrupsiyaya qarşı mübarizə hər zaman ölkəmizdə diqqət mərkəzində olub. Amma bu, elə bir problemdir ki, davamlı öyrənilməlidir. Bu baxımdan Antikorrupsiya Akademiyasının Yay Məktəbini keçirməsi çox əhəmiyyətlidir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aparat rəhbəri Azad Cəfərov, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev və QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev çıxış edərək yay məktəbinin əhəmiyyətindən danışıb, Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər barədə məlumat verib, iştirakçılara uğurlar arzulayıblar. Sonra yay məktəbi panel iclasları ilə davam edib. Yay məktəbi avqustun 28-də başa çatacaq.



# Türkiyənin Azərbaycanda yeni səfiri təyin olunub

Türkiyə Respublikasının Azərbaycanda yeni səfiri təyin olunub. Türkiyənin ölkəmizdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, yeni səfir Türkiyə xarici işlər nazirliyinin baş direktor müavini Erkan Özoraldır. Onun yaxın vaxtlarda Azərbaycanda fəaliyyətə başlayacağı gözlənilir.

# Əflatun Amaşov: "Milli mənəvi və dini dəyərlərimizin təbliğində media təmsilçilərinin üzərinə böyük öhdəlik düşür"



"Dini radikalizmə, ayrı-seçkiliyə qarşı mübarizədə medianın da rolu artır". Bu fikri Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov deyib. Ə.Amaşov bildirib ki, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində, bəzi xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında medianın rolu böyükdür. "Milli mənəvi və dini dəyərlərimizin təbliğ və təşviq edilməsində, dinin ictimaiyyətə düzgün formada çatdırılmasında media təmsilçilərinin üzərinə böyük öhdəlik düşür. Jurnalistlər dinimizin təbliğini məhz bu istiqamətdə təşkil etməli, dini radikalizmlə mübarizədə daha fəal olmalı, terrorizmə və ekstremizmə qarşı daha sərt mövqe tutmalıdırlar"- deyə, Ə.Amaşov vurğulayıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib

Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib ki, muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Respublikası Prezidentinin qayğısı ilə muxtar respublikaya təbii qazın verilməsi bu sahədəki problemləri həll etmiş, enerji təhlükəsizliyi tam təmin olunmuşdur. Vaxtilə elektrik enerjisi idxal edən Naxçıvan Muxtar Respublikası bu gün elektrik enerjisi ixracatçısına çevrilmişdir. Muxtar respublikanın kəndlərində quruculuq işləri aparılarkən elektrik və qaz xətləri də yenilənir, sabit enerji təchizatının həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. İstehlakçıların sayının ilbəil artması isə elektrik enerjisi və təbii qaza olan tələbatı artırır. Bu mənada hər il payız-qış mövsümünə əvvəlcədən hazırlıq işlərinin görülməsi mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasının baş naziri Əlövsət Baxşıyev, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru Yasin Səfərov, "Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Ramin İsmayılov və Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış ediblər.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri Şamı Abdullayev, Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov, Əlahiddə Ümumqoşun Ordu Komandanı Kərəm Mustafayev və Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli payız-qış mövsümünə hazırlığın vəziyyəti və görülən işlər barədə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Muxtar respublikada həyata keçirilən tədbirlər nəticəsində bütün yaşayış məntəqələri ilboyu fasiləsiz elektrik enerjisi və təbii qazla təchiz olunur. Lakin bunlar arxayınlaşmaq üçün əsas vermir. Ona görə də muxtar respublikada payız-qış mövsümünə hazırlıq işləri hər il diqqət mərkəzində saxlanılır. Energetika sahəsinə diqqət hər il artırılır. Bunun bir səbəbi də muxtar respublikada məskunlaşma səviyyəsinin ilbəil artması, yeni yaşayış məhəllələrinin salınması, sənaye və digər enerji tutumlu müəssisələrin istifadəyə verilməsidir. Bu da elektrik enerjisinə olan tələbatı artırır. Bu tələbatı ödəmək üçün isə yeni elektrik stansiyalarının yaradılması, ənənəvi enerji mənbələri ilə yanaşı alternativ və bərpa olunan enerji mənbələrindən istifadə də diqqət mərkəzində saxlanılır. Bütün bunlarla yanaşı energetika infrastrukturu da yenilənir.



Qeyd olunub ki, ötən dövr ərzində qaz infrastrukturunun yenilənməsi istiqamətində də bir sıra tədbirlər görülüb, istehlakçıların təbii qazla təminatının daha da yaxşılaşdırılmasına nail olunub. Muxtar respublikada yay mövsümündə elektrik enerjisinə olan gündəlik tələbat 80-85 meqavat, təbii qaza olan tələbat 700 min kubmetrdir. Qış mövsümündə elektrik enerjisi tələbatı 45-50 meqavat, təbii qaz tələbatı isə 1 milyon 700 min kubmetr təşkil edir. Əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə indidən başlanmalı, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

Ali Məclisin Sədri müşavirədə aidiyyəti təşkilatlara tapşırıqlar verərək deyib: Dövlət Energetika Agentliyi enerji təchizatı sisteminin dayanıqlığını, ötürücü və paylayıcı şəbəkələrdə avadanlıqların normal işləməsini təmin etməli, elektrik enerjisinin ötürülməsində yaranan texniki itkinin minimum həddə saxlanılması üçün müvafiq tədbirlər görməli, enerji israfçılığına yol verilməsinin, elektrik enerjisindən qanunsuz istifadənin qarşısının alınması üçün aid orqanlarla birlikdə həyata keçirilən nəzarət tədbirlərini davam etdirməlidir. Qış mövsümünə hazırlıqla əlaqədar mövcud transformator və yarımstansiyaların texniki baxışdan keçirilməsi oktyabrın 20-dək başa çatdırılmalıdır. İstismara yararsız olan, standartlara uyğun gəlməyən, bir çox hallarda qəza yaradan elektrik avadanlıq və xətlərinin müəyyən edilərək yenilənməsinə diqqət artırılmalıdır. Energetika Agentliyi Naxçıvan şəhərində elektrik enerjisinin yeratlı kabellərlə verilməsini və SMART-kart tipli sayğacların quraşdırılmasını davam etdirməli, tələb olunan mal-materialın, avadanlıqların alınıb gətirilməsini və zəruri ehtiyatın yaradılmasını diqqət mərkəzində saxlamalıdır. İşçilərin qış mövsümünə uyğun xüsusi geyimlə təminatı üçün tədbirlər görülməli, qəza-bərpa briqadalarının komplektləşdirilməsini və onların təlimatlandırılmasını oktyabr ayının sonuna kimi başa çatdırmalıdır.

"Naxçıvanqaz" İstehsalat Birliyi oktyabr ayının 20-dək qaz təchizatı sistemində texniki baxış tədbirlərini başa çatdırmalı, mövcud nasazlıqları vaxtında aşkar edərək aradan qaldırılması üçün tədbirlər görməlidir. Təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun texnoloji rejimdə həyata keçirilməsi təmin olunmalı, yerlərdə istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsinə nəzarəti artırmalıdır. Naxçıvan şəhərində mövcud sayğacların SMART-kart tipli sayğaclarla əvəzlənməsi davam etdirilməli, qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunması davam etdirilməli, işçilərin qış mövsümünə uyğun xüsusi geyim və avadanlıqlarla təmin olunması üçün tədbirlər görülməlidir.

Müşavirədə şəhər və rayon icra hakimiyyətlərinə tapşırılıb ki, cari il noyabr ayının 1-dək qazanxanalarda elektrik enerjisi, təbii qaz və su təchizatı sahəsində mövcud problemləri araşdırıb, nöqsanları aradan qaldırsınlar. İctimai yaşayış binalarının giriş qapı və pəncərələrinin, zirzəmilərindən keçən istilik, su və kanalizasiya xətlərinin istismara yararlılığını araşdırsınlar, onlardan təmirə və ya yenilənməyə ehtiyacı olanlarının qısa müddətdə dəyişdirilməsi üçün müvafiq tədbirlər görsünlər. Qış mövsümündə yolların vaxtında təmizlənməsi üçün kommunal xidmət texnikalarının saz vəziyyətdə olmasını diqqət mərkəzində saxlasınlar.

Ali Məclisin Sədri deyib: Muxtar respublikanın təhsil, səhiyyə və mədəniyyət obyektlərinin əksəriyyəti, idman müəssisələrinin isə hamısı istilik sistemi ilə təchiz olunub. Lakin hələlik bəzi müəssisə və təşkilatların binalarının qızdırılmasında maye qaz və neft məhsullarından istifadə olunur. Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi bu müəssisələrin qış mövsümündə normal fəaliyyətini təmin etmək məqsədilə tələb olunan maye qaz və neft məhsullarının tədarükünü və satışını davam etdirsin, muxtar respublikada zəruri yanacaq ehtiyatlarının yaradılmasına diqqəti artırsın. Nəqliyyat Nazirliyi qış aylarında marşruta buraxılan nəqliyyat vasitələrinin qrafikə uyğun hərəkətini və texniki sazlığını diqqətdə saxlasın. Avtomobil Yolları Dövlət Şirkəti qış mövsümü üçün qum ehtiyatı yaradılmasını təmin etsin.

Qeyd olunub ki, Naxçıvan Beynəlxalq Hava Limanı uçuşların təhlükəsizliyi üçün bütün maşın-mexanizmlərin, elektrik-işıq sisteminin, rabitə qurğularının texniki baxışını həyata keçirməli, tələbata uyğun yanacaq və mal-material ehtiyatının yaradılmasını nəzarətdə saxlamalıdır. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti dəmiryolu nəqliyyatında qış aylarında hərəkətin təhlükəsizliyini təmin etməli, vaqonlara və lokomotivlərə texniki baxış keçirməli, yol təsərrüfatının saxlanmasına, material ehtiyatının yaradılmasına diqqəti artırmalıdır. Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri qazanxanalarda işləyən mövsümi işçilərin təlimatlandırılması üçün müvafiq tədbirlər görməlidirlər. Payız-qış mövsümündə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin fasiləsiz fəaliyyəti aid nazirliklər və yerli icra hakimiyyətləri tərəfindən təmin olunmalıdır. Muxtar respublikanın ali, orta ixtisas və peşə təhsili müəssisələri ilə aid təşkilatlar arasında əlaqələr yaradılmalı, müvafiq ixtisaslar üzrə mütəxəssislərin hazırlanmasına diqqət artırılmalıdır. Təhsil Nazirliyi bu ilin noyabr ayınadək peşə məktəblərində qazanxana operatoru ixtisası üzrə kursların təşkilini təmin etməlidir.

Ali Məclisin Sədri tapşırıb ki, Səhiyyə Nazirliyi əhaliyə keyfiyyətli xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin yanacaq və dərman preparatları ilə təmin olunmasına nəzarəti gücləndirsin. İqtisadiyyat Nazirliyi qış aylarında ərzaq məhsullarına olan tələbatın daha çox yerli və keyfiyyətli məhsullar hesabına ödənilməsini təmin etmək üçün mövsüm ərzində istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükünə nəzarəti artırmalıdır. Kənd Təsərrüfatı Nazirliyi Dövlət Baytarlıq Xidməti ilə birlikdə heyvandarlıq, quşçuluq və arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinin qışlamaya hazırlığı ilə əlaqədar maarifləndirmə tədbirlərini həyata keçirməli, xəstəliklərə qarşı tələb olunan dərman vasitələri ehtiyatının yaradılmasını diqqətdə saxlamalıdırlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin təminatı üçün tədbirlər görməlidir. Hərbi hissələr üçün yun corabların toxunması işi bu il də davam etdirilməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi qış aylarında abonentlərə keyfiyyətli xidmət göstərilməsi üçün xətt təsərrüfatının etibarlığını daha da artırmalı, mal-material ehtiyatının yaradılmasını təmin etməlidir. Fövqəladə Hallar Nazirliyi yanğın təhlükəsizliyi üçün elektrik enerjisi, təbii qaz və neftdən istifadə ilə bağlı əhali arasında və təhsil müəssisələrində maarifləndirmə işini davam etdirməlidir. Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət komitələri standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinə və istismarına yol verməməlidirlər. Bu barədə istehlakçılar və sahibkarlar əvvəlcədən məlumatlandırılmalıdır.

Ali Məclisin Sədri deyib: Ədliyyə Nazirliyi cəzaçəkmə müəssisələrinin fasiləsiz istiliklə təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təchizatını diqqətdə saxlamalıdır. Muxtar respublika ərazisindəki hərbi hissələrdə qış mövsümü üçün tələb olunan ehtiyatın yaradılması diqqətdə saxlanmalı, sərhəd zonalarındakı hərbi hissələrin yanacaqla təchizatı və ərzaq ehtiyatının yaradılması vaxtında başa çatdırılmalıdır. Şəhər və rayon icra hakimiyyətləri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi qurumuş ağacların kəsilərək hərbi hissələrə verilməsini davam etdirməli, payız mövsümündə yeni yaşıllıqların salınmasını təşkil etməlidirlər. Muxtar respublikanın bitki və heyvanat aləminin qış aylarında qorunması üçün müvafiq tədbirlər görülməlidir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti istilik sistemi olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrində payız-qış mövsümü üçün tələb olunan yanacağın bölgüsünü təsdiq etməli, zəruri yanacaq və avadanlıqların alınmasını təmin etməli, payız-qış mövsümünə hazırlıqla bağlı verilmiş tapşırıqların icrası üçün tədbirlər planı hazırlamalı və icrası barədə cari ilin oktyabr ayının sonunadək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat verməlidir. Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb.

# "Zaminlər öhdəlikləri yerinə yetirməyə məcburdurlar"- EKSPERT RƏYİ

*"Azərbaycanda zaminlər haqqında öhdəliklər həm "Kredit haqqında" qanunda, həm də Mülki Məcəllədə öz əksini tapıb. Qanunun tələblərinə görə, zaminlər krediti ödənilməyən borc qarşısında birbaşa olaraq krediti götürənin özü kimi məsuliyyət daşıyırlar. Bu baxımdan bir çox banklar kredit ödənilmədikdə zaminlərə təzyiq etməyə başlayırlar". Bu fikirləri SİA-ya iqtisadçı-ekspert Rəşad Həsənov problemli kreditlərdə zaminlərin daha çox məsuliyyətə cəlb olunmasına münasibət bildirərkən deyib.*

### "Kredit borclarını zaminlərin əmək haqlarına yönəltmək daha asan başa gəlir"

Onun sözlərinə görə, kreditlər bir çox hallarda rəsmi gəlirlərini təsdiq edə bilməyən müştərilərə, əmək haqqını kartla və ya rəsmi dövlət qulluğunda çalışan zaminlər olduğu halda verilir: "Belə olan halda, banklar üçün zaminlərə təzyiq etmək və kredit borclarını həmin zaminlərin əmək haqlarına yönəltmək daha asan başa gəlir. Kredit alarkən hər hansı bir gəliri ilə bağlı ciddi sənəd təqdim etməyən müştəri biznes fəaliyyəti ilə bağlı kredit alıbsa və hazırda biznesi çöküb və girovu da yoxdursa, təbii ki, onun borclarının yönəldiləcəyi yeganə istiqamət məhz zaminlərdir. Bu baxımdan banklar çətinlik çəkmədən bu istiqamətdə qərarlar qəbul edirlər ki, bunun səbəbindən hazırda zaminlər çox ciddi şəkildə təzyiq altındadırlar".



### "Bundan sonra insanların bir-birinə zamin durması halları azalacaq"

R. Həsənov qeyd edib ki, ölkəmizdə zaminlərlə bağlı problem xüsusilə 2015-ci ilin ortalarından daha çox qabarmağa başladı: "Bundan əvvəlki dövrlərdə bəzi banklar səhlənkarlıq edərək rəsmi şəkildə fəaliyyət göstərən bir nəfərin bir neçə müştəriyə zamin durması üçün şərait yaradırdılar. Belə olan halda, hər kəs zamin dura bilirdi. Lakin o zaman kreditlərin ödənilməsində böyük problem olmadığı üçün bu cür hallar ictimailəşdirilmirdi. İnsanlar zaminlərin öhdəliyi ilə bağlı kifayət qədər məlumatlı olmadığı üçün bu məsələyə biganə yanaşırdılar. Lakin hazırda problemli kreditlər çoxluq təşkil etdiyi üçün hesab edirəm ki, proses daha da dərinləşə bilər. Amma bir məsələ var ki, bundan sonra insanların bir-birinə zamin durması halları azalacaq ki, bu da zaman-zaman problemin səngiməsinə gətirib çıxaracaq. Amma hazırda bu problemlə bağlı nə qanunvericilikdə hər hansı dəyişikliyin edilməsi, nə də zaminlərin bu öhdəlikdən boyun qaçırması mümkün deyil"

### "Zaminlər öhdəliklərindən boyun qaçıra bilməzlər"

"Çox təəssüf ki, bəzən kredit götürən şəxslər müqavilə şərtləri ilə tanış olmaq istəmir. Belə olan halda, onlar nə özünün nə də qarşı tərəfin öhdəliklərini bilmirlər. Bu məsələ zaminlərə də aiddir. Bəzən insanlar elə düşünür ki, kredit aldığı bankdan şərtlər haqqında söz soruşsa, o zaman həmin bank kredit verməkdən imtina edə bilər. Nəzərə alaq ki, kredit götürərkən müqavilə əsasdır və imza atılıbsa, orada nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi də məcburidir. Zaminlər bundan imtina edib, boyun qaçıra bilməzlər. Hesab edirəm ki insanlar bundan sonra daha ehtiyatlı davranacaqlar" - deyə, R. Həsənov əlavə edib.

***Nailə Məhərrəmova***

# Baş prokuror Balakən şəhərində vətəndaşları qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq baş prokuror Zakir Qaralov avqustun 26-da Balakən rayon prokurorluğunun inzibati binasında Balakən, Zaqatala, Şəki, Qax, Oğuz və Qəbələ rayonlarında yaşayan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror və Balakən Rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsinin önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər. Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Z.Qaralov bölgədə yaşayan 24 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına lazımi göstərişlər verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb. Eyni zamanda, prokurorluq orqanlarının səlahiyyətlərinə aid olmayan müraciətlərin aidiyyəti qurumlara çatdırılması üçün tapşırıqlar verilib. Qəbul zamanı vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını bildirərək, onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər. Daha sonra baş prokuror tabe prokurorların iştirakı ilə müşavirə keçirib. Müşavirədə vətəndaşməmur münasibətlərinin Prezident İlham Əliyevin tələblərinə uyğun olaraq sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması, habelə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili ilə bağlı tövsiyə və tapşırıqlarını verib.

## YENƏ DƏ "NARAHATDIRLAR"...



RƏFİQƏ

Deyəndə ki, dağıdıcı müxalifətin ermənilərdən fərqi yoxdur, qınayırlar. Baxın, bu gün ermənilər doğma torpaqlarımızdan elə yenə də öz doğma torpaqlarımızı vururlar, bizim cəsur ərənlərimiz də ermənilərin başlarına od ələyən kimi, ABŞ və Qərb ölkələri dərhal bundan "narahat" olduqlarını yekə-yekə bəyanatlarında səsləndirirlər. Qardaş, ermənilərə qucaq açaraq, onlara nökərçilik edən erməniləşmiş ünsürlər elə həmin ermənilərə milli-dövlətçilik maraqlarımızı satırlar, dövlətə xəyanət edirlər, nəticədə tutulub haqlı olaraq dama basılırlar, yenə də ABŞ-ın və Qərb ölkələrinin təşkilatları dərhal bundan "narahat" olduqlarını dilə gətirirlər. Əcəba, bu "narahat" olmaq nəmənə məsələdir ki, bunlar bircə dəfə də həmin narahatçılıqlarını bizim xeyrimizə səsləndirmirlər? Məgər narahat olmaq da pulla-zadladırmı?!

Dağıdıcı müxalifət üçün hər şey pulladır. Baxın, həmişə olduğu kimi, bu gün də ermənilər kimi, müxalifət də narahatçılıq keçirir. Ona görə narahatdır ki, ölkə ictimaiyyəti referenduma getdiyi halda, müxalifət növbəti biabırçılıqla üzləşəcək. Bu gün hər kəs çox gözəl anlayır və bilir ki, bu müxalifət heç də xalqın, millətin və dövlətin maraqlarına xidmət etmir, onların məqsədləri ən rəzil və alçaq yollarla hakimiyyətə gəlmək cəhdidir. 20 il boyunca hakimiyyətə yiyələnə bilməyənlərin hələ də utopik xəyallara düşməsi isə, elə xəyal olaraq da qalmaqdadır.

Sirr deyil ki, ölkədə mövcud olan bəzi problemlərin həll olunması düşərgə mənsublarını əməllibaşlı yerindən oynatdı. Bəzilərinin maraqlı xarici dairələr tərəfindən ələ alınmaları barədə edilən çıxışda, bir daha sübut olundu ki, müxalifət liderləri dövlətçiliyə xələl vura biləcək rüsvayçı əməllər törədirlər və bu əməlləri törədənlər əlahəzrət qanunla qarşı-qarşıya qalmalı olacaqlar.

### Dövlətimizin maraqlarını xaincəsinə satanlara bəraət ola bilməz

Bu gün müxalifətçilərin "satılmış", "xaricdən iana alan", "ünsür", "rəzil" kimi ittiham olunmalarına səbəb də, məhz onlara doğru yönəlmiş haqlı ittihamlardır. Əgər ənənəvi müxalifət "liderləri", həqiqətən də, satılmış, xaricdən ianə alan, ünsür və rəzil deyillərsə, nəyə görə bu ittihamlardan sonra təşviş keçirirlər? Qorxmurlarsa, çəkinmirlərsə (əlbəttə ki, xalqdan-R.H) hansı səbəbdən mətbuatlarında özlərini hər vəchlə təmizə çıarmağa səy göstərirlər? Bu sualın da cavabı bəllidir. Cavab budur ki, onlar faş olacaqlarını, daha kəskin qaydada ifşa ediləcəklərini anlamağa başlayıblar. Ona görə də başlayıblar ucundan tutub, ucuzluğa getməyə ki, bəs qoymayın, bizi "əzirlər", "pozurlar", "ünsür" adlandırırlar və s. Bu yerdə adama deyərlər ki, a bala, od olmasa, tüstü çıxmaz və ya soğan yeməmisən, için niyə göynəyir! Çünki bu gün Azərbaycanın milli maraqlarını satan əli kərimlilər, taleh bağırzadələr, leyla və arif yunuslar, xədicə ismayıllar, isa qəmbərlər... ermənipərəst dairələr bundan möhkəm narahat olublar. Ona görə ki, dövlətimizin maraqlarını xaincəsinə satan bu ünsürlərdən yaxşısını tapa bilməyəcəklər.

Beləliklə, bu "narahatolma" ifadələri son zamanlar normal düşüncəli cəmiyyəti yamanca bezdirib. Hətta o qədər bezidirib ki, cəmiyyət də belə "narahatolmalardan ciddi şəkildə narahat olmağa başlayıb. Bu narahatçılıq isə referenduma qədər müxalifəti sonda ya qəbrə, ya da ki...

***Son zamanlar Rusiya, Azərbaycan, İran və Türkiyə arasında intensiv müzakirələr gedir. Bu ölkələr əməkdaşlığın yeni imkanlarını axtarırlar. Bakıda Rusiya, İran və Azərbaycan rəhbərlərinin, Sankt-Peterburqda isə Türkiyə və Rusiya prezidentlərinin görüşü bu aspektdə ümidverici məqamların mövcudluğunu təsdiqləyib. Bu görüşlərdən sonra Moskvada Vladimir Putinin Serj Sarkisyanla apardığı danışıqlar daha çox rəmzi xarakter daşıyıb. Çünki burada hər hansı yeni əməkdaşlıq məqamı haqqında razılığın əldə edildiyi müşahidə edilməyib. Onlar ənənəvi cümlələrini təkrar söyləyiblər. Erməni mətbuatı bu hadisələrə müəyyən reaksiya verib. Aparılan təhlil göstərir ki, İrəvan qeyri-müəyyənlik içindədir və özünün geosiyasi proseslərdən kənarda qalmasına ağrılı reaksiya verməkdədir.***

# Cənubi Qafqazda geosiyasət: Ermənistanın absurd iddiaları və gerçəklik

Bunun fonunda ermənilər absurd iddialar irəli sürür və demək olar ki, hər kəsdən narazılıqlarını ifadə edirlər. Bütün bunlar əbəsdir, çünki Ermənistanı yalnız gerçəkliyi nəzərə alan xarici siyasət xilas edə bilər. Bunun reallaşması isə mümkünsüz görünür. Məsələ ondan ibarətdir ki, ermənilər müstəqil dövlətçilik fəlsəfəsini hələ mənimsəyə bilməyiblər - onlar köhnə siyasi təsəvvürlərin əsiri olaraq qalırlar.

## Özünütəcrid: əsassız siyasətin acı bəhrələri

Ermənistan Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslərin kontekstindən kənarda qalmaqdadır. İrəvan nə hadisələrin iştirakçısı ola bilir, nə də onlara təsir etmək imkanlarına malikdir. Rusiya tərəfi onu yalnız alınan qərarlar barədə məlumatlandırır. Serj Sarkisyanı Moskvada qəbul edən Vladimir Putin ona özünün Bakı və Rəcəb Tayyib Ərdoğanın Sankt-Peterburq səfəri barədə lazım bildiyi informasiyaları deyib. Hiss olunur ki, bu durum erməni ekspertlərini ciddi surətdə pərt edib. Çünki Ermənistan kütləvi informasiya vasitələrində də yeni antirusiya təbliğat kampaniyasına başlanıldığı duyulur.

Real olaraq isə Cənubi Qafqazda olduqca maraqlı geosiyasi proseslər gedir. Aydın görünür ki, Rusiya, Türkiyə, İran və Azərbaycan yeni əməkdaşlıq formaları axtarır, əlaqələri müasir mərhələnin tələblərinə uyğunlaşdırmağa çalışırlar. Bakıda Vladimir Putin, Həsən Ruhani və İlham Əliyevin apardıqları müzakirələrdə regional əhəmiyyətli qərarlar qəbul edilib.

Azərbaycan bu vacib hadisələrin mərkəzində yer alır. Rusiya və İran Bakının iqtisadi, siyasi, təhlükəsizlik, nəqliyyat və enerji sahələrində oynadığı rolu yüksək qiymətləndirirlər. Onlar bu istiqamətlər üzrə Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını gizlətmirlər. Məsələnin digər tərəfi isə Türkiyəyə bağlıdır. Hətta bir



sıra ekspertlər vurğulayırlar ki, Ankara Bakı görüşündə rəsmi təmsil olunmasa da, dolayısı ilə burada alınan qərarları qəbul edir. Bu mənada Bakıda faktiki olaraq dörd dövlət əməkdaşlıq məsələlərini müzakirə etmiş oldu.

Bununla regionda perspektivli əməkdaşlıq formatı öz təsdiqini tapmaqdadır. Burada iqtisadi, enerji, nəqliyyat sferaları ilə yanaşı, təhlükəsizlik aspekti də ciddi surətdə nəzərə alınır. Deməli, söhbət həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllindən gedir. Təbii ki, Rusiya, İran, Türkiyə və Azərbaycan danışıqlar vasitəsi ilə problemin ədalətli həlli variantı üzərində işləyə bilərlər. Azərbaycan tərəfi başqa heç bir ssenarini qəbul etmir. Çünki ərazi bütövlüyü şərti dəyişilməzdir.

Bunların fonunda Vladimir Putinin Ermənistan prezidentinə Moskvada münaqişənin ATƏT-in Minsk qrupu üzvlərindən bəzilərinin fəallığını artırması ilə həll ediləbiləcəyinə işarə verməsi təsadüfi deyil. Erməni ekspertlər bunu Türkiyənin prosesə daha aktiv qatılması siqnalı kimi qiymətləndiriblər. Onu vurğulayaq ki, Ankara bir qədər əvvəl Minsk qrupunun iclaslarından birini Türkiyədə keçirməyi təklif etmiş və bu, həmsədrlər tərəfindən razılıqla qarşılanmışdı.

Buna baxmayaraq, erməni tərəfi bu addımı Rusiyanın geri çəkilməsi və Türkiyənin daha çox işə qarışması kimi təqdim etməyə çalışır. Bu informasiyaların fonunda isə Vladimir Putinin "Rusiya və Minsk qrupunun bir sıra dövlətləri Dağlıq Qarabağ münaqişəsinin tənizmlənməsinin qarantı ola bilərlər" fikrini həyəcanla qarşılayaraq Rusiya prezidentinin "həmsədrlər" sözünü işlətməməsini onun faktiki olaraq Türkiyəni nəzərdə tutması kimi mənalandırırlar (bax: Naira Ayrumən. Rossiə i Turüiə predlojili qarantii po Karabaxu, Armeniə otkazalasğ / "lragir.am", 11 avqust 2016).

## Yanlış manevrlər və tərəddüdlər: şikayətçi İrəvan çıxılmaz dairədə

Lakin maraqlıdır ki, ermənilərin özləri də dediklərinə inanmayıb başqa bir versiyanı irəli sürürlər. Onlar hesab edirlər ki, Dağlıq Qarabağ məsələsi Ermənistanın etirazlarına görə gələn ilin yazına qədər "dondurulub". Bunun başqa səbəbi kimi isə Rusiya, Türkiyə, İran və Azərbaycanın münaqişəni həll etmək üçün lazımi səviyyədə imkanlarının olmaması göstərilir (bax: Naira Ayrumən. Karabaxskiy vopros zamorojen do vesnı buduheqo qoda / "lragir.am", 12 avqust 2016).

Əslində, bu cür məntiqsiz izahların əsas səbəbi Ermənistanın baş verən proseslərdən kənarda qalması və gerçəkliyi təhrif edərək uydurma arqumentləri təhlil etməyə çalışmasıdır. Məhz buna görədir ki, onlar bir tərəfdən Ermənistanın Rusiyadan tam asılı olduğunu etiraf edir, digər tərəfdən də İrəvanın hansısa "güc" nümayiş etdirməsindən dəm vururlar.

Hətta bir ovuc erməni separatçısının qondardığı qurumun "müqavimətindən" də yazırlar (bax: məs., Akop Badalən. Rossiə i Armeniə otreklisğ druq ot druqa / "lragir.am", 12 avqust 2016 və Karabaxskiy deputat: Pustğ Rossiə reşaet problemı s Donbassom, Abxaziey / "lragir.am", 13 avqust 2016). Mənəviyyatı xəstə, şüuru məntiqsiz olan bu adamlar anlamırlar ki, Ermənistan adlanan ölkə birbaşa Rusiya imperiyasının layihəsidir və Kreml istədiyi zaman onu yox edə bilər. Azərbaycan torpaqlarını da "qəhrəman erməni əsgərləri" deyil, SSRİ ordusunun müəyyən hissələri işğal edib. İndi Rusiyanın tarixi missiyalarından biri bu ədalətsizliyi bərpa etməkdən ibarətdir. Vladimir Putin bunu reallaşdıra bilsə, doğrudan da tarixi adım atmış olar.

Ermənistan dövlət olaraq xarici siyasətini müstəqil apara bilmir. Bu, danılmaz faktdır. Erməni ekspertlərin özləri də bunu açıq etiraf edirlər. Belə bir şəraitdə İrəvanın hansı müqavimətindən danışmaq olar? Cəfəng iddiadır. Həm də onu nəzərə almaq gərəkdir ki, İrəvan Qərblə əlaqələrini qura bilmir. O, Avrasiya İqtisadi İttifaqının (Aİİ) üzvü kimi başqa cür davrana da bilməz.

Həmin kontekstdə İqor Muradyan yazır: "...Ermənistan Cənubi Qafqazın geosiyasi cəhətdən ən zəif həlqəsi, dövlət olaraq ən çox asılı olanıdır, ancaq dünya güclərinin onunla əlaqə qurması asan deyil, çox mürəkkəbdir" (bax: İqorğ Muradən. İnteresı SŞA v otnoşenii Armenii / "lragir.am", 12 avqust 2016). Buna görədir ki, ABŞ real əməkdaşlıq əvəzinə zaman-zaman İrəvana "şikayətlər kitabı"na nəsə qeyd etməyi təklif edir. Belə çıxır ki, Ermənistan, ümumiyyətlə, dövlət kimi formalaşmayıb və onunla əməkdaşlıqdan ciddi çərçivədə danışmağın mənası yoxdur. Ermənistan rəhbərlərinin yalnız axmaq siyasi iddiaları vardır və ona da ermənilərdən başqa kimsə inanmır. Belə olmasaydı, Vaşinqton "şikayət kitabı"nı göstərməzdi, Rusiya isə dərhal təhlükəsizlik məsələləri ilə hədələməzdi.

Bəzi erməni ekspertləri özlərindən mücərrəd geosiyasi ssenarilər qurub, Ermənistanın əhəmiyyətini vurğulamağa çalışsalar da, reallıqda İrəvan regionun geosiyasi mənzərəsindən kənarda qalıb. Bu proses getdikcə dərinləşir. Hazırda Ermənistan region miqyasında cərəyan edən bütün əməkdaşlıq formatlarından kənardadır. Onun hətta Gürcüstanla əhəmiyyətli əməkdaşlıq proqramı yoxdur. ABŞ və Avropanın regional reallıqları nəzərə almadan ermənilər üçün hansısa fədakarlığı edəcəyinə ümid etmək tam əsassızdır. Təcrübə göstərir ki, hətta Suriyada belə Qərb istədiyi kimi hərəkət edə bilmir.

Dünyanın geosiyasi dinamikasının ümumi mənzərəsi belədir ki, meydana çıxan yeni güclərin təsir imkanları getdikcə genişlənir. ABŞ və Avropa öz iradələrini əvvəlki kimi yeridə bilmirlər. Bu reallıq prizmasından Ermənistanın vəziyyətinə baxdıqda, onun tamamilə havadan asılı qaldığını görürük. İrəvan nə region dövlətləri ilə münasibətlərini konstruktiv müstəvidə qura, nə də Qərblə ciddi əməkdaşlığa gedə bilir. Nəticədə, onun hərəkətlərində yanlış manevrlər və tərəddüdlər özünü daha çox göstərməyə başlayıb.

Belə görünür ki, Ermənistana layiq olduğu yer qətiyyətlə göstərilməyincə, şıltaqlıq edəcək. Beynəlxalq ictimaiyyət, ilk növbədə BMT, ATƏT, Avropa İttifaqı İrəvana ciddi təzyiq göstərməlidir. Xüsusilə böyük dövlətlər uzun illərdir apardıqları geosiyasi oyunlara son qoyub, həqiqəti söyləməlidirlər. Bunlar olmasa, Ermənistan adlandırılan qondarma dövlət Cənubi Qafqazın baş ağrısı olaraq qalacaq. Belə bir vəziyyətin isə hamı kimi, supergüclərə də xeyri yoxdur. Anlamayanlara zaman başa salacaq. Onda gec olmayacaq ki?!

***Newtimes.az***

# Qaxda “Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili” mövzusunda tədbir keçirilib





*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Qax rayonunda “Dini radikalizmlə mübarizədə dini icmaların rolu” mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Qax rayon icra hakimiyyəti başçısının birinci müavini Tahir İsmayılov rayondakı dini durum barədə məlumat verib: “Qax rayonu Azərbaycanda müxtəlif xalqların, müxtəlif dini konfessiyaların, icmaların, o cümlədən, müxtəlif etnosların birgə yaşadığı ən nümunəvi bölgələrdən biri sayılır. Rayonda Alban məbədlərinin, məscidlərin, gürcü kilsəsinin, digər dini ayinlərin icra edildiyi ziyarətgahların mövcud olduğu və birgə fəaliyyət göstərdiyi hamıya yaxşı bəllidir. DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək dövlət-din münasibətlərindən, ölkəmizdə milli-mənəvi və islami dəyərlərin qorunması və təbliği sahəsində görülən işlərdən bəhs edib. Qeyd edib ki, Azərbaycan tolerant ölkədir və burada bütün dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar. S.Salahlı, həmçinin, dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları, dünyada baş verən siyasi proseslərin dini radikalizmə təsiri barədə geniş məlumat verib.

Daha sonra Qax rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Nəzirməhəmməd Nəsirov, Qax rayon qazısı Novruz Sadıqov və QMİ-nin rayon üzrə səlahiyyətli nümayəndəsi Hacı Əsgərov da mövzu ətrafında məruzələrlə çıxış ediblər.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Ü.ƏSGƏROV**

# “Azərişıq” ASC Gəncə və Qəbələ “ASAN xidmət” mərkəzlərində fəaliyyətə başlayıb



“Azərişıq” ASC “ASAN xidmət” mərkəzləri ilə iki ildən artıq müddətdir fəaliyyət göstərir. Hazırda Bakı şəhərində 1,2,3,4,5 saylı “ASAN xidmət” mərkəzlərində və regionlarda Sumqayıt, Sabirabad və Bərdə “ASAN xidmət” mərkəzlərində “Azərişıq” ASC-nin fəaliyyəti davam etdirilir. “Azərişıq” ASC-dən AZƏRTAC-a bildirilib ki, müraciət edən abonentlərin keyfiyyətli və sürətli xidmətlərdən məmnunluğu, müraciətlərin çoxluğu nəzərə alınaraq, göstərilən xidmətin əhatəsini daha da genişləndirmək məqsədilə avqust ayından etibarən Gəncə və Qəbələ “ASAN xidmət” mərkəzlərində də fəaliyyətə başlayıb. Artıq həmin mərkəzlərdə abonentlər “Azərişıq” ASC-nin göstərdiyi xidmətlərdən faydalana bilərlər. Hazırda “Azərişıq” ASC “ASAN xidmət” mərkəzləri ilə birgə vətəndaşlara borcun olmamasına dair arayışın verilməsi, elektrik enerjisi istehlakçısının dəyişdirilməsi, məişət abonentlərinin elektrik şəbəkəsinə qoşulması, qeyri-əhaliyə üzləşmə aktlarının verilməsi və borcun araşdırılması kimi xidmətlərini göstərir.



# Türkiyənin Yaxın Şərq siyasəti

*Rusiya ilə razılaşma, yoxsa terrorla mübarizə faktoru?*



***Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisinə daxil olaraq, Cerablus şəhərini, o cümlədən, onun ətrafını bir gecədə “İŞİD” və “PKK” tərəfdarları olan “PYD” kürd terror qruplaşmalarından təmizləməsi, ümumiyyətlə, bir faktı sübuta yetirdi - dünya birliyinə təsdiq edildi ki, lazım olan təqdirdə bu kimi terror qruplarını, hətta bir gecəyə böyük şəhərlərdən çıxarmaq mümkündür.***

Lakin bu məsələ ətrafında bir sıra xarici politoloqlar çox yəqin ki, Türkiyə SQ-nin yüksək nüfuzunu gözdən salmaqdan ötrü bəzi real görünməyən versiyalarla çıxış edirlər. Məsələn, ABŞ və Qərb siyasi təhlilçiləri hesab edirlər ki, Türkiyənin Cerablusa daxil olması arxasında Rusiya ilə bu ölkə arasında olan gizli anlaşmalar mövcuddur və əgər Rusiya bu məsələdə Türkiyəyə dəstək verməsəydi, “İŞİD”, “PKK”, “PYD” kimi güclər hələ də bu şəhərdə mövcudluqlarını qoruyub-saxlayacaqdılar.

Ancaq bu kimi iddiaların kökündən yanlış olması göz önündədir. Ümumiyyətlə, qardaş ölkənin SQ-nin Cerablus əməliyyatı çərçivəsində iki strateji məqsədinin olması sirr deyil.

**1.**”PKK”-nın Suriya qolu “PYD”-nin bu bölgədə təsirini aradan qaldıraraq gələcəkdəki müstəqil dövləti üçün strateji üstünlük əldə etməsinə imkan verməmək və Qərbin Türkiyəyə qarşı apardığı siyasəti sərhədlərindən kənarlaşdırmaq.

**2.**Türkiyə bu addımı ilə Rusiyanın, İranın və Suriyanın ümumi düşməni- İŞİD-i zərərsizləşdirərək, regionda aparıcı güc olduğunu isbatlamaq.

Düzdür, Türkiyənin açıq hücum xarakterində terrora qarşı müharibə elan etməsi, ümumilikdə, regiona səmərəsini verərəcəksə də, digər tərəfdən, terrorçuların bu ölkədəki qanlı hadisələr törətmələrinə zəmin yaradır. Lakin terrorla köklü mübarizə üçün başqa çıxış yolu da yoxdur.

## Növbəti hədəf Aziz və sonradan İraqın Mosul şəhəridir

Bəlli olan daha bir amil Türkiyənin dayanmaq fikrində olmadığını göstərir. Artıq bu ölkənin Müdafiə Nazirliyindən, o cümlədən, Baş Qərargahından bldirilir ki, növbəti hədəf Aziz və sonradan İraqın Mosul şəhəridir.

Maraqlı məqamlardan biri də bir müddət öncə, İraq hökumətinin “İŞİD”-lə mübarizədə Rusiyanın qırıcı və bombardmançı təyyarələrinə hava yolu təqdim etməyə hazır olması barədə verdiyi bəyanatlarıdır. Ümumiyyətlə, mürəkkəb siyasi hadisələr çərçivəsində regionda ölkələr arasında müəyyən anlaşmaların yaranması nəticə etibarilə müsbət nəticələrini verməkdədir.

## “İŞİD” və s. terrorçu güclərə qarşı koalisiyada birləşən Qərb dünyası öz mübarizəsində qeyri-səmimi görünüb

Maraqların uzalaşması, eyni zamanda, Yaxın Şərq xəritəsinə yenidən baxılması zərurətini gündəmə gətirir. Bu gün Suriyada Bəşər Əsəd iqtidarını beynəlxalq qanunlar çərçivəsində leqal hakimiyyət kimi qəbul edən ölkələrlə Əsədə qarşı döyüşən mülayim müxalifətə - Azad Suriya Ordusuna (ASO) dəstək göstərən Türkiyə arasındakı anlaşmalar da belə nəticəyə gəlməyə zəmin yaradır. Hər halda, baş verənlər bölgədə yeni sülhün yaranmasına hesablanmış addımdır və görünən də budur ki, bir neçə ildir “İŞİD” və s. terrorçu güclərə qarşı koalisiyada birləşən Qərb dünyası öz mübarizəsində qeyri-səmimi görünüb. Əbəs yerə deyil ki, həmin koalisiyaya bu və ya digər şəkildə dəstək göstərmiş Türkiyə indi tamamilə mövqeyini dəyişməli olub. Bunu isə son günlər Türkiyə-İran-Rusiya-Suriya arasındakı mövcud bağlantılar yetərincə təsdiq edir.

**Rövşən NURƏDDİNOĞLU**

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
27 avqust 2016-cı il

# Ermənistanda sosial etirazlar səngimir

## Bu, laxlamış Sarkisyan rejiminin devrilməsinin başlanğıc nöqtəsidir

***Bu gün Ermənistan prezidenti Serj Sarkisyan hakimiyyətinə qarşı narazılıqlar səngimir. Bütün etirazların başında sosial-iqtisadi, ictimai-siyasi yönümlərdə vəziyyətin getdikcə gərginləşməsi, dinamik inkişaf edən böhrana çevrilməsidir. Sözsüz ki, ölkədə Sarkisyan hakimiyyətinin səriştəsiz idarəçiliyi, artan narazılıq, xarici güclərin asanlıqla Ermənistana istədiklərini diktə etməsi isə vəziyyəti daha da çətinləşdirir. Məhz bu səbəbdəndir ki, Ermənistanın müstəqil dövlət deyil, Sarikisyan üçün hansısa əyalət olduğu etiraf olunur.***



Erməni müxalifətçi Armen Martirosyan bildirir ki, Ermənistan Sarkisyan rejiminin idarəsi altında azadlığını itirmək təhlükəsi ilə üzləşib. Onun sözlərinə görə, kriminal rejim Ermənistanı başqa dövlətlərə hədiyyə etməkdədir. Buna, eləcə də siyasi repressiyalara etiraz əlaməti olaraq, hakimiyyətə qarşı aksiyaların sayı artır.



Xatırladaq ki, Ermənistan xüsusi istintaq xidməti post-patrul alayının ərazisində olan 44 nəfərdən 42-ni həbs edib. Bundan sonra isə Ermənistanda etirazlar güclənib. Silahlı dəstənin tərəfdarları imzatoplama kampaniyasına başlayıblar. Üsyançıların vəkilləri də irəli sürülən ittihamları qəbul etmirlər. Bu səbəbdən də, aksiyalar genişlənir.

Yaranmış durumda diqqət yetirilən daha bir məqam Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Erməni mediası yazır ki, ölkənin getdikcə ağır duruma düşməsi Qarabağ məsələsində Azərbaycana müqaviməti daha zəif hala gətirir. “Joxovurd” qəzeti yazır ki, məhz bu səbəbdən, indi Dağlıq Qarabağda az-çox imkanı olan ailələrin az qala hamısı uşaqlarını Ermənistana yollayırlar. Qeyd olunur ki, Dağlıq Qarabağın şimalını tərk etmiş qarabağlı erməni ailələrinin sayı artıq 982-yə çatıb. Onların heç biri geriyə qayıtmaq niyyətində deyil. İşğal altındakı digər ərazilərdən də böyük köçün başlanması gözlənilir və bu istiqamətdə artıq müəyyən hərəkətlilik də var. Ermənilər artıq yaxşı bilirlər ki, zəif, gücsüz, xarici hamilərinin dəstəyindən məhrum olan Ermənistanın artıq bundan sonra Azərbaycan ərazilərini işğal altında saxlaması mümkün deyil.



### Sarkisyanın neytrallaşdırma siyasəti özünə zərərdir



İşğalçı ölkədə müşahidə olunan sosial-iqtisadi gərginlik fonunda ziddiyyətlərin artması səngimək bilmir. Yaranmış vəziyyətdən çıxış yolunu təzyiqlər və repressiyalar yolu ilə müxalif fəallarını neytrallaşdırmaqda görən Sarkisyan anlamır ki, bu, onun özünə zərərdir. Buna konkret misal kimi müxalif “Təsis parlamenti”nin üzvü Qarik Qalstyana evinin qarşısında hücum olunması, ona fiziki təzyiqlərdən sonra çoxsaylı bıçaq zərbələri endirilməsi göstərilir.

Qalstyanın sözlərinə görə, hadisəni törədənlər Ermənistan prezidenti Serj Sarkisyanın adamları olublar və onlar müxalifətçiyə hücum edərkən, bu sözləri deyiblər: “Heç kim bizim prezidentə qəsd edə bilməz, nə sən, nə də bu “Sasna Tsrer” qaragüruhu”.

Xatırladaq ki, “Sasna Tsrer” Yerevanda polis məntəqəsinə hücum etmiş üsyançı qrupudur və onun üzvləri hazırda həbsdədir. Xalq isə bu şəxslərin azadlığa buraxılmasını tələb edir. Hesab olunur ki, bu tələbə qoşulanların sayının artması hakimiyyəti getdikcə daha çətin vəziyyətdə qoyacaq. Belə vəziyyət artıq indidən hakim komanda daxilində parçalanmalara rəvac verib. Eyni zamanda, S.Sarkisyanın əsas rəqibləri də yaranan situasiyadan öz xeyirlərinə istifadə etməyə can atırlar. “Aykakan Jamanak” qəzeti özünün etibarlı mənbələrinə istinadən yazır ki, eks-prezident Robert Koçaryan və hakim komandada ona yaxın şəxslər də indiki dövlət başçısına qarşı fəallaşıblar. Bu gedişlə onlar da Sarkisyanı vaxtından əvvəl tutduğu postdan kənarlaşdırmaqda maraqlı olan qüvvələr sırasında yer alacaqlar.

Beləliklə, ölkədə iqtisadi durumun ağırlaşması isə Sarkisyana qarşı olan qüvvələrin iqtidara təzyiq etmələri üçün əlavə imkanlar yaradır. “1in.am” saytına açıqlamasında erməni iqtisadçı Qor Çaturyan bildirib ki, Ermənistana xaricdən pul transfertlərinin azalması ölkədə sosial gərginlik yaradır.

Erməni iqtisadçı Vardan Bostancyan da eyni mövqeni bölüşür: “Ermənistanı sanki bütün regional hadisələrdən və layihələrdən kənarlaşdırırlar. Əslində, hazırda regionda yaranmış vəziyyət Ermənistan üçün əlverişsizdir. Kosmetik deyil, köklü islahatlar lazımdır. Psixoloji amil də rol oynayır. Bütün Ermənistanda psixoloji tənəzzül hökm sürür”.

“Aykakan Jamanak” qəzeti isə yazır ki, iqtisadi geriləmə fonunda Ermənistanın valyuta ehtiyatları cari ilin iyul ayında, ümumilikdə, 1 milyard 589 milyon dollar olub. Bu, son 9 ildə ölkə ehtiyatlarının ən aşağı göstəricisidir. Nəşr yazır ki, ümumiyyətlə, son illərdə Ermənistanın valyuta ehtiyatları kifayət qədər aşağı düşüb: “Müqayisə üçün deyə bilərik ki, 2009-cu ilin ikinci yarısında valyuta ehtiyatları 2 milyard dollar olub. 2010-2014-cü illərdə 1,8-1,9 milyard dollar, 2015-ci illə müqayisədə isə 1,5-1,6 milyard dollar təşkil edib”.

Göründüyü kimi, bütün bu faktlar bir daha onu sübut edir ki, ölkəni talan edən indiki iqtidar mümkün qədər tez hakimiyyətdən uzaqlaşdırılmalıdır.

**A.SƏMƏDOVA**






## TƏRS BAXIŞ

# Əli Kərimli Kamal Kılıçdaroğlunun plagiatlığını edir?

## Yaxud AXCP sədrindən növbəti feysbuk qəhrəmanlığı

*Müxalifətyönlü "Turan" informasiya agentliyi "etibarlı mənbəyə" istinad edərək "sensasion" məlumat əldə edib. Məlum olub ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Ə.Kərimli həbs olunacaq. Əslində, bu məsələnin müxalifətyönlü sayt tərəfindən şişirdilərək, cəmiyyətə təqdim olunması kimsədə təəccüb doğurmur və AXCP sədri həbs olunarsa, əslində, bu daha ədalətli qərar olardı. Çünki bu adamın siyasi partiya sədri adı altında oynamadığı xəyanət oyunları qalmayıb. Bu barədə illərdir ki, yazılır, vurğulanır.*

### Əli Kərimli Azərbaycan müxalifətinin bir nömrəli üz qarasıdır

O cümlədən, itqidar mətbuatı ilə yanaşı, vaxtilə Ə.Kərimlinin yanında gəncliklərini, həyatlarının ən mənalı zamanlarını, canlarını qoymuş, ona inanmış, lakin sonda işlənmiş əl kağızı kimi kənara tullanılmış şəxslər də bu barədə dəfələrlə qeyd ediblər. Ə.Kərimli Azərbaycan müxalifətinin bir nömrəli üz qarasıdır. İndi həmin bu üz qarası yenidən partiyasının təmsilçilərinin həbsindən "narahat" olmağa başlayıb. Çünki növbənin ona tərəf gəldiyini dərk edir. Bu səbəbdən, "Turan" informasiya agentliyi Ə.Kərimlinin həbs olunacağını "sensasiya" kimi qələmə verib, ictimai rəydə özünə lazım olan dividendləri qazanacağını hesab edirsə, möhkəm şəkildə yanılır.

### O, bu haqları nə bu dünyada, nə də o biri dünyada ödəyə bilməyəcək

Məsələ ondadır ki, Ə.Kərimlinin boynunda bəlkə də yüzlərlə sabiq cəbhəçinin haqqı var. O, bu haqları nə bu dünyada, nə də o biri dünyada ödəyə bilməyəcək. Çünki həbs olunduqdan sonra bir çox cəbhəçi Ə.Kərimlinin onlara qarşı nə qədər etinasız olduğunu görüb. İndi bu adamın faktiki olaraq Fətulla Gülənə işləməsi barədə reallıqları bütün çılpaqlığı ilə ortaya çıxıb. Belə olan vəziyyətdə Ə.Kərimli Qərbdəki ağalarına mesaj verməyə başlayıb. Əlbəttə ki, çoxdan alışdığı çığır-bağırları ilə. Amma bu məsələnin digər maraqlı cəhətləri var. Bu barədə az sonra qeyd edəcəyik.

Ancaq Kərimlinin həbsinə qədər, bəlli olduğu kimi, onun əsas əlaltıları qanunun bütün tələblərinə cavab olaraq, istintaqa cəlb ediliblər. Belə ki, avqustun 19-da axşam Dövlət Təhlükəsizlik Xidməti və Azərbaycan Baş Prokurorluğu "Azərfon" mobil rabitə şirkətinin əməkdaşı Fuad Əhmədlinin abunəçilərin şəxsi məlumatlarının yayılması, habelə, Türkiyədə bədnam ilahiyyatçı F.Gülənə qarşı rəğbəti olması ittihamı ilə həbsi haqqında birgə bəyanatla çıxış edib.

Avqustun 20-də isə "Azadlıq" qəzetinin maliyyə direktoru, F.Gülənin "Hizmet" hərəkatının imamı elan edilən Faiq Əmirli həbs olunub. Avqustun 24-də AXCP üzvü İsmayıl Rəsulov saxlanılıb. Ümumiyyətlə, son 10 gündə, ümumilikdə, 6 AXCP üzvü müvafiq cinayətlərinə görə həbs olunublar və onlar istintaqa ifadə verəcəklər.



### Kılıçdaroğlunun mərdliyi ilə müqayisədə Kərimlinin namərdliyi, ümumiyyətlə, tərs mütənasibdir

İndi isə qayıdaq Ə.Kərimlinin plagiatlıq məsələsinə. Bildiyimiz kimi, bir neçə gün öncə Türkiyənin ana müxalifət partiyalarından olan Cümhuriyyət Xalq Partiyasının sədri (türkcəsi CHP-R.N.)Kamal Kılıçdaroğlunun bölgələrə səfəri zamanı ona qarşı sui-qəsd planı hazırlanıb. Belə ki, onun özü sui-qəsddən sağ-salamat çıxsa da, cangüdənlərindən biri həyatını itirib. Kılıçdaroğlu sonradan mətbuata açıqlamasında bildirib ki, əgər onu öldürmək istəyənlər varsa, birbaşa özünü qətlə yetirsinlər və ətrafındakı insanlarla kimsənin işi olmasın. CHP sədri heç bir günahı olmayan insanların onun yürütdüyü siyasətə görə zərər çəkməli olmamalarını da vurğulayıb, bildirib ki, bu yola çıxanda, ölümünü belə gözə alıb. Və...

Və nə qədər qəribə görünsə də, türkiyəli ana müxalifət partiyası liderinin həmin ifadələri səhəri gün AXCP sədri Ə.Kərimlinin feysbuk səhifəsində öz adından yayımlanıb. Təbii ki, bir az düzəlişlərlə. Məsələn, türkiyəli partiya sədrinin ifadələrini işlədən AXCP sədri deyib ki, o, bu yola çıxanda, nəinki həbs edilməyini, hətta ölümü də gözə alıbmış (?!-R.N.).

Göründüyü kimi, kişilik siyasətindən tamamilə məhrum olan bu fərd aşkar şəkildə həyasız, hətta ləçərsayaq siyasət yürüdür, özü də başqalarının ifadələrini plagiat etməklə. Halbuki Kamal Kılıçdaroğlu ilə müqayisədə Ə.Kərimli çox kiçik, hətta mikroskopik ölçüdə zorla görünə biləcək varlıq ola bilər. Kılıçdaroğlunun mərdliyi ilə müqayisədə Kərimlinin namərdliyi, ümumiyyətlə, tərs mütənasibdir. AXCP sədri indi də plagiatçılıq yolu ilə "siyasət" yürüdüb, Qərbdəki ağalarının diqqətini özünə cəlb edəcəyini hesab edirsə, çox möhkəm şəkildə yanılır. Bunu ictimaiyyət də yaxşı bilir.

***Rövşən NURƏDDİNOĞLU***

P.S. Adama deyərlər ki, tutulacaqsansa, tutulacaqsan da. Sənin yanlış yolunda bu qədər adam tutuldu, nə olar ki, bir dəfə də sən tutulasan. Üzüyünün qaşı düşməyəcək ki...

# "Ermənistan İran-Azərbaycan münasibətlərindən təlaşlanır"

Beynəlxalq təhlükəsizlik istitutunun eksperti, iranşünas Armen Vardanyan regionun aktual siyasi məsələlərini cavablandırarkən Ermənistan-İran əlaqələrinə münasibətini bildirib. SİA 1in.am-a istinadən xəbər verir ki, Vardanyan açıqlamasında Rusiya-Türkiyə, eləcə də Rusiya-İran münasibətləri barədə də fikirlərini açıqlayıb. İranşünasın sözlərinə görə, Rusiya-İran münasibətləri hazırda ən yüksək səviyyədədir və dinamik inkişaf dövrünü yaşayır: "İran eyni zamanda Qərblə münasibətlərinin dərinləşməsinə çalışır. Lakin ABŞ-la bağlı bir sıra problemlər həll də mövcuddur". Erməni iranşünas bildirib ki, İran yaxınlarda ABŞ-ı yüksək səviyyədə nüvə razılaşmasına əməl etməməsi barədə suçlayıb və belə davam edərsə, razılaşma çərçivəsindən çıxacaq: "Bu kontekstdə İran Qərbə göstərir ki,



onun qucağına atılmağa hazırlaşmır və paralel olaraq Rusiya ilə əlaqələrini inkişaf etdirir".

"Rusiya ilə əlaqələrinin möhkəmləndirilməsi İrana ona görə sərf edir ki, hər iki ölkə Suriyada Əsəd hakimiyyətini dəstəkləyir"- deyə qeyd edən Vardanyan həmçinin bildirib ki, İran Rusiyadan ən çox silah alan ölkələr sırasında dayanır. Erməni ekspert eyni zamanda Rusiya, İran və Azərbaycan arasında yaranmış yeni əlaqələrin Ermənistana hansı təhlükələri yarada biləcəyi ehtimallarına da münasibətini bildirib və deyib ki, bu məsələdə bəzi təlaş yaradan məsələlər mövcuddur: "Belə ki, Rusiya Azərbaycana müəyyən olunmuş proqramlar təklif edir. Xüsusilə, təklif edir ki, Şimal-Cənub dəhlizi Azərbaycanın ərazisindən keçsin". Vardanyan Azərbaycan-İran münasibətlərində də inkişafın dinamik xarakter aldığını deyib və bildirib ki, bu münasibətlər Ermənistan-İran münasibətlərindən bir boy yüksəkdə dayanır: "Ölkələr arasında ikitərəfli razılaşma planına əsasən ticarət dövriyyəsinin artması, siyasi plan da buraya daxildir. Artıq hər iki ölkəni prezidentləri 7 dəfə görüş keçiriblər, lakin Ermənistan və İran prezidentlərinin görüşləri hələ də baş tutmayıb. Bu, çox mühüm bir göstəricidir".

***R.RƏSULOV***

## Şəmkirdə qadın qadını bıçaqlayıb



Şəmkirdə bıçaqlanma olub. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə rayonun Sarıtəpə kəndində qeydə alınıb. Kənd sakini 1988-ci il təvəllüdlü Günel Mirzəyeva mübahisə zəminində həmkəndlisi 1991-ci il təvəllüdlü Məleykə Allahverənovanı bıçaqlayıb. Yaralı dərhal Şəmkir Mərkəzi rayon xəstəxanasına yerləşdirilib. Əməliyyat edilən M. Allahverənovanın vəziyyəti ağır qiymətləndirilir. Faktla bağlı Şəmkir rayon Polis Şöbəsində araşdırma aparılır.

## Azərbaycan - Yaponiya beynəlxalq ekspedisiyası Damcılı mağarasında tədqiqatlar aparıb



*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Aveydağ Qoruğu və Tokio Universiteti arasında imzalanan memoranduma əsasən, 2016-cı ildən etibarən Qazax rayonu Daşsalahlı kəndi ərazisində və Avey dağı ətəyindəki Damcılı mağarasında daş dövrünün müxtəlif mərhələlərinə aid layların tədqiqi aparılıb.*

Ekspedisiyanın tərkibində Tokio Universitetinin professoru, Daş Dövrü Arxeologiyası Departamentinin rəhbəri, doktor Yoşihiro Nişiakinin rəhbərliyi ilə yaponiyalı mütəxəssislər (topoqraf, paleobioloq, paleobotanik və digərləri) və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Ü tarix üzrə fəlsəfə doktorları Mənsur Mənsurov və Azad Zeynalov, həmçinin, Göytəpə Neolit məskənində tədqiqatlar aparan Tovuz Arxeoloji Ekspedisiyasının üzvləri, institutun elmi işçiləri Ü Şahin Səlimbəyov və Yaqub Məmmədov fəaliyyət göstərib.a

Tədqiqatlar zamanı qazılmış 12 kəşfiyyat şurfunun bir neçəsində mühüm nəticələr əldə olunub. Qazıntı nəticəsində şurflarda müəyyən edilmiş üst təbəqələrdən orta əsrlərə aid keramika nümunələri və ox ucluqları, alt təbəqələrdən erkən neolit dövrünə aid alətlər tapılıb. Neolit təbəqəsindən daha aşağıya doğru, təxminən 50 sm qalınlıqda olan lal təbəqənin altında, 3,5 metr dərinlikdəki təbəqədən Orta Paleolit dövrünə aid alətlər aşkar olunub. Təbəqələrdən əldə olunmuş fauna və kömür qalıqları mütləq tarixi yaşın müəyyən olunması üçün Tokio Unversitetinə göndəriləcək. 8-i mağarada olmaqla, dövrümüzədək 30-dan artıq Paleolit abidəsi aşkar olunmuşdur. 1956-1957-ci illərdə Damcılı mağarasında arxeoloji qazıntılar M.M.Hüseynovun rəhbərliyi ilə davam etdirilmiş, mədəni təbəqədən üst və orta Paleolit, Mezolit, Neolit dövrlərinə aid 7 mindən artıq alət və tullantılar, eləcə də fauna qalıqları tapılmışdır. Lakin o zaman aşkar edilmiş mədəni təbəqənin qarışıq olması dövrlərin keçid mərhələlərini və mütləq yaşını müəyyənləşdirməyə imkan verməmişdir.

***ZÜMRÜD***

# Düşmən səngərində olanlar məğlubiyyətə məhkumdurlar

Son illər müstəqil Azərbaycan dövləti böyük uğurlara imza ataraq, beynəlxalq aləmdə yüksək nüfuza və mövqeyə malik olmuşdur. Həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində ölkəmiz sürətli inkişaf yolu keçərək, dünyada ən inkişaf edən ölkələrdən birinə çevrilmişdir. İnsanların rahat və təhlükəsiz yaşaması, sosial-iqtisadi vəziyyətinin yaxşılaşması dövlətmizin proriritet istiqamətlərdən olmuşdur. Buna görə, Azərbaycan dünyada sabitlik adası, insanların daha firavan, yaxşı yaşayışa malik ölkə kimi tanınır və qəbul edilir. Təbii ki, uğurlar, nailiyyətlər bir qədər də inkişaf etdirilir. Baxmayaraq ki, bəzi "sapı özümüzdən olan məkrli qüvvələr" və onlarla geniş iş birliyində olan xarici maraqlı qüvvələr Azərbaycanın əldə etdiyi böyük zəfərə, parlaq qələbələrə xələl gətirməyə cəhdlər göstərirlər. Müsavat və AXCP kimi partiyaların pula satılmış funksionerləri müxtəlif xarici pozucu qüvvələrlə gizli görüşlər keçirərək, onlardan təxribatlar, terror aktları törətmək üçün yeni-yeni təlimatlar, göstərişlər alırlar. Bu nöqteyi-nəzərdən demək olar ki, xarici anti-Azərbaycan mövqeli qüvvələrlə daha cox görüşlər keçirən Ə.Kərimli, İ.Qəmbər və A.Hacılıdır. Düzdür, əvvələr dövriyyədə "El" hərəkatının sədri Eldar Namazov, "Milli Şura"nın sədri Cəmil Həsənli və digərləri də olub. Ancaq sonuncular zamanında üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirə bilmədiklərindən, proseslərdən uzaqlaşdırılıblar. Daha dəqiq desək, onlarla əməkdaşlığa son qoyulub. İndi gündəmdə daha cox Ə.Kərimli, A.Hacılı və İ.Qəmbərdir. Yəni sözügedən şəxslər, mütamadi olaraq, səfirlərlə görüşlər keçirir, xaricdəki qüvvələrlə yazışmalar, "skayp"la danışıqlar və söhbtlər aparırlar. YAP Siyasi Şurasının üzvü, millət vəkili Aydın Mirzəzadə müxalif partiya sədrlərinin xarici ölkə səfirləri ilə görüşlərinin keçirilməsinin həssas məsələ olduğunu bildirib: "Bir var, diplomatik qəbullar, hansısa məsələ barəsində fikir mübadiləsi, bir də var ki, xarici ölkə səfirinin Azərbaycanda müxalifət liderləri ilə qapalı şəkildə hansısa məsləhətləşmələr keçirməsi. Bu, Azərbaycanda narahatlıq və xeyli suallar doğurur. Çünki daxili məsələlərin, hakimiyyət uğrunda mübarizə prosesinin xarici ölkələrin Azərbaycandakı təmsilçiləri ilə müzakirəsi düzgün qəbul edilmir. Çox təəssüf ki, ABŞ səfirliyində bu praktikaya geniş yol verilir. Müxalitətlə ya fərdi, ya da qrup şəklində görüş keçirilir və həmin görüş barəsində Azərbaycan cəmiyyətinə heç bir məlumat verilmir".



A.Mirzəzadənin sözlərinə görə, bu tipli görüşlər barədə cəmiyyətə məlumat verilməməsi də müəmma doğurur: "Əgər bu, sadəcə, diplomatik etiketdirsə, niyə, məhz müxalifət nümayəndələri ilə görüşlər keçirilir. Yox, əgər burada hansısa mühüm məsələ müzakirə olunursa, niyə onun məzmunu ictimaiyyətdən gizlədilir?"

### Robert Sekuta Ə.Kərimlini tənbeh edib

Düşmənlə iş birliyinə getmək, yalnız torpağı satmaq, dövlətə xəyanət etməklə kifayətlənmir. Milli maraqlara qarşı cıxmaq, əldə olunan uğurlara kölgə salmağa cəhd etmək elə düşmənlə iş birliyinə getmək kimi bir şeydir. Məsələ burasındadır ki, Ə.Kərimli vəzifədə olduğu AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə ermənni kimi yırtıcı düşmənlə iş birliyinə gedərək, torpaqlarımızın işğal edilməsinə yardımçı olubsa, bu gün də xaricdəki ermənipərəst məkrli qüvvələrlə əməkdaşlıq ələqələri qurmaqla milli maraqlarımıza zərbə vurmağa cəhdlər göstərir. Qorxulu terrorçu təşkilat olan "gülən" hərəkatı ilə Ə.Kərimlinin əlaqələri üzə çıxdıqdan sonra AXCP daxilində çaxnaşma yaranıb. İfşa edilən Ə.Kərimli müxtəlif variantlardan istifadə etməklə, cinayətlərini ört-basdır etməyə çalışır.

Fətulhçılarla əlaqələri üzə çıxdıqdan sonra Ə.Kərimli xarici ölkələrdəki qüvvələrlə əlaqələr quraraq, onlardan kömək istəyib. Məlumata görə, Ə.Kərimli Qərbdəki və ABŞ-dakı himayədarlarını hədələməkdən də çəkinməyib. Bildirib ki, istintaqa çağrılıb, sorğu-sual ediləcəyi təqdirdə, aralarında olan bütün faktları açıqlamaq məcburiyyətində qalacaq. Bu barədə bizə məlumat verən mənbənin sözlərinə görə, Ə.Kərimlinin təşviş dolu fikirləri xarici maraqlı qüvvələr arasında narahatlıq yaradıb. Deyilənlərə əsasən, qeyd etmək lazımdır ki, avqustun 23-də Ə.Kərimlinin ABŞ-ın Azərbaycandakı səfirliyinə çağrılması da, məhz mövcud məsələlərlə bağlıdır. Alternativ AXCP-nin sədri Razi Nurullayev bildirib ki, Ə.Kərimlinin xarici diplomatik korpusun nümayəndələri ilə görüşləri əksər hallarda Ə.Kərimlinin tənbeh edilməsi üzərində qurulan söhbətlər olub: "Ə.Kərimli ilə görüşümüzdə o, məni hakimiyyətə işləməkdə günahlandırdı. ABŞ və Böyük Britaniya səfirliyi bunu mənə neçə vaxtdır deyirdilər ki, sən dövlətə satılmısan. Belə çıxır ki, ABŞ və Böyük Britaniya səfriliyi siyasətçilərə dinləmə aparatları quraşdırıb, hər birini dinləyirlər. Belə çıxdı ki, həmin səfirliklər siyasətçiləri dinləyib, Ə.Kərimliyə məlumat verirlər. Mən buradan ABŞ və Böyük Britaniya səfirliyinə müraciət edirəm. Bununla bağlı həmin səfirliklərə məktub göndərəcəyəm. Necə ola bilər ki, həmin səfirliklər mənimlə bağlı Ə.Kərimliyə məlumat ötürür?"

R.Nurullayevin sözlərinə görə, Ə.Kərimlinin özü satqın olduğu halda, məni satqın kimi təqdim edib, gözdən salmağa çalışması təəccüb doğurur. Görüşümüzdə mənə bildirdi ki, sən gedən yolu mən artıq qayıtmışam. Mənim heç bir getdiyim yol yoxdur. Ümumiyyətlə, satqınlıq məfhumunu qəbul etmirəm".

Araşdırmalara, eləcə də R.Nurullayevin dediklərinə əsaslanaraq, o qənaətə gəlmək olar ki, Ə.Kərimlinin ABŞ səfirliyində Robert Sekuta ilə görüşü heç də sakit keçməyib. Bunu bizə Ə.Kərimliyə yaxınlığı ilə seçilən şəxsin dediyi məlumatlar da təsdiq edir. Ə.Kərimliyə yaxlınlığı ilə seçilən şəxsin məlumatına görə, səfirlkdə Ə.Kərimli bərk danlanıb, ağzına yiyəlik edə bilməməkdə, danışdıqlarına sərhədə qoya bilməməkdə ittiham edilib. Nəzərinə çatdırılıb ki, ABŞ-dakı nümayəndələri hədələdiyinə görə, Azərbaycanda keçirilməsi palanlaşdırılan referendum ərəfəsi Gürcüstan vasitəsilə AXCP-yə çatmalı olan maliyyə yardımından məhrum olunacaq.

Bir sözlə, hadisələrin inkişafı onu göstərir ki, istər Azərbaycanda, istərsə də xaricdə Ə.Kərimlinin durumu heç də ürəkaçan deyil. Bu isə, Ə.Kərimlinin siyasətlə xüdafizləşməsi zaman məsələsi olduğundan xəbər verir. Yəni Ə.Kərimli istənilən məqamda siyasətdən getdiyini bəyan edə bilər.

**İ.ƏLİYEV**

# Aleksandr Duqin: "Ermənistandan heç nə qalmaya bilər"

"Ermənistan iqtisadiyyatı Rusiya ilə müqayisədə çox zəifdir və heç bir əhəmiyyət daşımır, o cümədən, Rusiya iqtisadiyyatından asılıdır". SİA-nın məlumatına görə, bu fikirləri Rusiyanın tanınmış politoloqu Aleksandr Duqin Serj Sarkisyanın son zamanlar Qərbə doğru siyasi addımlar atması ilə bağlı Ermənistanın birinci kanalına müsahibəsində deyib. Politoloq bildirib ki, Rusiyanın ağırlıq təşkil etdiyi Avrasiya İttifaqı hazırda Nuh peyğəmbərin gəmisini xatırladır və bu gəmini tərk etmək istəyən mütləq zərərə uğrayacaq:



"Rusiyanın özünün də iqtisadiyyatı o qədər nəhəng deyil, ancaq bizdə başqa üstünlüklər - nüvə silahı, təbii resurslar, böyük ərazilər və s. mühüm faktorlar var. Lakin maliyyə baxımlından bunlar o qədər də önəmli deyil". Duqini sözlərinə görə, əgər Rusiya mövcud böhrandan çıxa bilməyi bacarsa, Ermənistan da bunu bacarar. O, qeyd edir ki, sözügedən istiqamətdəki proses elə də asan deyil: "Və əgər Rusiya üçün bu cür çətin situasiyada Ermənistan Qərbdən dəstək qazanmağa can atarsa, bu situasiya partlaya bilər və nəticədə Ermənistanda heç nə qalmaz. Ermənistan Qərbə lazım deyil. Qərb isə yeganə bir şey əldə edə bilər ki, bu da Qarabağ münaqişəsində nəzarəti saxlamaq və geosiyasi rəqibi olan Rusiyaya zərbə vurmaqdır. Ermənistan belə bir vəziyyətdə Rusiyadan möhkəm yapışmalı və sakit halda maliyyə-iqtisadi situasiyanı izləməlidir".

# Mixali Saakaşvilinin həyat yoldaşı deputatlığa namizəd oldu

Gürcüstanın sabiq prezidenti, hazırda Ukraynanın Odessa vilayətinin qubernatoru Mixali Saakaşvilinin həyat yoldaşı Sandra Rulofs "Vahid milli hərəkat" (VMH) partiyasının parlament seçkiləri ilə bağlı siyahısında ikinci yerdə elan edilib. Gürcü mətbuatı yazır ki, dünən partiyanın mərkəzi ofisində keçirilən tədbirdə siyahıda adı birinci olan, baş katib David Bakradze keçmiş birinci ledinin siyasi həyata qoşulduğunu bəyan edib. "Mən mübarizəyə hazıram və bizim qələbəmizə inanıram. Mən seçicilərimzə güvənirəm, onlar səslərini verəcəklər, çünki Gürcüstannın tərəqqisinə və çiçəklənməsini istəyirlər", - Rulofs deyib. O, partiyanın ofisinə birinci dəfə gəldiyini etiraf edərək əvvəllər siyasi həyatdan uzaq olduğunu vurğulayıb. Rulofs majoraitar sistem üzrə partiyanın Zuqdidi rayonundan yeganə namizədidir. Gürcüstanda parlament seçkiləri oktyabrın 8-də keçiriləcək.



# Məhkəmə Klintonun poçtunu araşdırır

Məhkəmə ABŞ Dövlət Departamentinə sabiq dövlət katibi Hillari Klintonun dörd il öncəki elektron məktublarını sentyabrın 13-nə kimi onlara təqdim etməyi tapşırıb. SİA xəbər verir ki, bu barədə Amerikanın CNBC telekanalı məlumat verib. Telekanalın bildirdiyinə görə, ötən gün məhkəmə departamentə sabiq dövlət katibinin Ağ evə yazdığı yeni məktublarını tapıb-tapmadığı barədə sorğu göndərib. Xüsusilə, 2012-ci ilin 11 -13 sentyabrında Liviyadakı Benqazi hadisələri ilə bağlı araşdırmalar məhkəməni ilgiləndirir. Xatırladaq ki, 2012-ci ilin 11 sentyabrında Benqazidə edilən hücum nəticəsində ABŞ-ın Liviyadakı səfiri və onu müşaiyət edən dörd nəfər cangüdəni öldürülüb. Artıq ABŞ prezidentliyinə iddialı olan Klinton ciddi qalmaqal qarşısında qalmaqdadır. O, şəxsi elektron poçtunu xarici siyasətlə bağlı xidməti işlərində istifadə etdiyinə görə ittiham olunmaqdadır. Siyasi dairələr Klintonun amizədliyinin lğğv ediləcəyini də istisna etmirlər.



# Goranboy rayon sakini özünü güllələdi



Goranboy rayon sakini silahla özünə atəş açıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Yolpaq kənd sakini 1976-cı il təvəllüdlü Mayis Məmmədov döş nahiyəsinin sol tərəfinin güllə yarası xəsarəti ilə Gəncə şəhər Təcili Tibi Yardım xəstəxanasına yerləşdirilib. Əməliyyat edilən yaralının vəziyyəti orta ağır qiymətləndirilir. Yaxınlarının bildirdiyinə görə, M.Məmmədov özü-özünü güllələyib. Faktla bağlı hüquq mühafizə orqanları tərəfindən araşdırma aparılır.

# Hacıqabulda iki uşaq anası niyə intihar edib?

Hacıqabulda iki uşaq anası intihar edib. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, Hacıqabul rayonunu Abdulabad kənd sakini 1993-cü il təvəllüdlü Moqilova Gülgər Səfər qızı dünən axşam 7 radələrində yaşadığı evdə özünü asıb. Onun asılmış cəsədi qohumları tərəfindən aşkarlanıb. İntiharın səbəbi məlum deyil. Faktla bağlı Hacıqabul rayon Prokurorluğunda araşdırma aparılır.

# MİLLİ AZLIQLARIN DİL HÜQUQLARI ÜZRƏ OSLO TÖVSİYƏLƏRİNƏ İZAHEDİCİ QEYDLƏR

***İnsan hüquqlarının Ümumi Bəyannaməsinin 1-ci maddəsində bütün insanların anadangəlmə ləyaqətindən insan hüquqları üzrə bütün standartların əsasında duran fundamental anlayış kimi danışılır. Bəyannamənin 1-ci maddəsində deyilir: "Öz ləyaqət və hüquqları ilə bütün insanlar azad və bərabər doğulurlar..." Bu maddənin əhəmiyyətini qiymətləndirməmək olmaz. Bu, yalnız ümumiyyətlə, birbaşa insan hüquqlarına aid deyil, həm də milli azlıqlara mənsub şəxslərin dil hüquqlarının ən əsaslarından birini ifadə edir. Ləyaqət və hüquq bərabərliyi fərdin insan identlikliyinə hörməti ifadə edir. İnsan identikliyinin əsas komponentlərindən biri dildir. Buna görə də insan ləyaqətinə hörmət insan indentikliyinə, deməli, həm də onun dilinə hörmətlə sıx bağlıdır.***

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın bu kontekstdə mühüm əhəmiyyəti vardır. Paktın 2-ci maddəsi dövlətdən ərazisindəki bütün şəxslərin insan hüquqlarının "dilə münasibətdə... fərqləndirmədən" təmin və hörmət olunmasını tələb edir. Paktın 19-cu maddəsi paktda ifadəsini tapdığı kimi, öz fikrini azad bildirməyə zəmanət verir, dövlət sərhədindən asılı olmayaraq, nəinki hər cür informasiya və ideya almaq və yazmaq hüququna, eyni zamanda, bütün bunları öz seçiminə uyğun vasitənin və ya dilin köməkliyi ilə etməyə zəmanət verir. İnformasiya almaq və yaymaq, eyni zamanda, insanların birgə hərəkət etdiyini göstərir. Bu kontekstdə paktın dinc yığıncaq və assosiasiya azadlığına zəmanət verən 21-ci və 22-ci maddələri yerinə düşəndir.

İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsində bəyan edilmiş fikir azadlığı Avropada bu konvensiyanın 14-cü maddəsinə əsasən, "dil... kimi əsaslara görə hər cür diskriminasiyadan uzaq şəkildə təmin edilməlidir". Həm insan hüquqlarının Ümumi Bəyannaməsinə, həm də İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına dəqiq istinadla Avropa Şurasının qəbul etdiyi fikri İfadə və İnformasiya Azadlığı haqqında Bəyannamədə təsdiq olunur ki, fikri ifadə və informasiya azadlığı hər bir insanın ictimai, iqtisadi, mədəni və siyasi inkişafı üçün zəruridir və sosial-mədəni qrupların, millətlərin və beynəlxalq birliyin harmonik imkanları üçün şəraiti ifadə edir". Bununla əlaqədar, insan hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasının 11-ci maddəsində zəmanət verilmiş dinc yığıncaq və assosiasiya azadlığı əhəmiyyətlidir.

ATƏT kontekstində fikri ifadə, yığıncaq və assosiasiya azadlığı kimi fundamental ideyalar ATƏMin İnsan Ölçüsü üzrə Kopenhagen Müşavirəsi Konfransının Sənədlərinin 9.1-9.3 bəndlərində sadalanıbdır.

Yeni Avropanın Paris Xartiyasında ATƏT-in iştirakçı ölkələrinin dövlət və hökumət başçıları təsdiq edirlər ki, hər bir insanın diskriminasiyaya məruz qalmadan "fikri azadlığı, assosiasiya və dinc yığıncaq azadlığı hüququ vardır".

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 27-ci maddəsi milli azlıqların dil hüquqlarına birbaşa dəxli olan başqa əsas maddədir. Bu maddə təsdiq edir ki, "milli azlıqlara mənsub şəxslərə həmin qrupun başqa üzvləri ilə birlikdə... doğma dildən istifadə etmək hüququna rədd cavabı verilməməlidir".

Milli, yaxud etnik, dini azlıqlara və dil azlıqlarına mənsub şəxslərin hüquqları üzrə BMT-nin Bəyannaməsinin 2 (1)-ci maddəsində də milli azlıqlara mənsub şəxslərin "şəxsi həyatda və ictimai yerlərdə öz dilindən azad və maneəsiz və diskriminasiyaya məruz qalmadan istifadə etmək" hüququnu beləcə bəyan edir. Milli azlıqların müdafiəsi üzrə Avropa Şurasının Çərçivə Konvensiyasının 10 (1)-cu maddəsi qeyd edir ki, dövlətlər milli azlıqlara mənsub şəxslərin "öz azlıqlarının dilindən şəxsi həyatda və ictimai yerlərdə azad və maneəsiz istifadə etmək" hüququnu tanıyacaqlar.

Doğrudur, alətlər azlıqların dilindən şəxsi həyatda və ictimai yerlərdə istifadəyə istinad edirlər, amma həmin alətlər "şəxsi" sferaya münasibətdə "ictimai" sferanın dəqiq sərhədlərini müəyyənləşdirmirlər. Əslində, bu sferalar kəsişə bilərlər. Məsələn, təklikdə və ya başqaları ilə birlikdə hərəkət edən şəxslər özlərinin şəxsi informasiya vasitələrini və ya məktəblərini yaratmağa çalışırlar. Şəxsi təşəbbüsün qanuni ictimai marağın predmeti ola bilməsi mümkündür. Belə maraq hansısa ictimai tənzimləmənin yaranmasına səbəb ola bilər.

Milli azlıqlara mənsub şəxslərin azlıqların dilindən "şəxsi həyatda və ictimai yerlərdə" istifadəsini təhsilə münasibətdən kənarda nəzərdən keçirmək olmaz. Təhsil məsələləri milli azlıqların dillərinə aid dərəcədə Milli Azlıqların Təhsil Hüquqları üzrə Haaqa tövsiyələrində təfsilatı ilə nəzərdən keçirilir. Bu tövsiyələr ATƏT-in Milli Azlıqlarla İş üzrə Ali Komissarının xahişi ilə Etniklərarası Münasibətlər Fondunun həm beynəlxalq insan hüquqları sferası, həm də təhsil sferası üzrə beynəlxalq səviyyəli ekspertləri ilə əməkdaşlıq etməklə işlənib hazırlanmışdır. Haaqa tövsiyələri milli azlıqlara mənsub şəxslərin hüquqlarına, milli azlıqlara mənsub insanların identikliyinin dəstəklənməsi və inkişafı kimi həyati əhəmiyyət kəsb edən sahələrə aid beynəlxalq alətlərin daha aydın dərkini asanlaşdırmaq üçün hazırlanmışdır.

İnsan hüquqları üzrə beynəlxalq vasitələr bəyan edir ki, insan hüquqları ümumidir və ondan eyni dərəcədə və ayrı-seçkiliyə yol verilmədən istifadə olunmalıdır. Amma insan hüquqlarının əksəriyyəti mütləq deyil. Alətlər dövlətin müəyyən hüquqların məhdudlaşdırılmasına haqq qazandıran məhdudlaşdırılmış situasiyalar dəstini görə bilir. İnsan hüquqları üzrə beynəlxalq qanunvericiliyin mümkün məhdudlaşdırmaları həyat üçün təhlükəli fövqəladə vəziyyətlərdə və ya başqalarının hüquq və azadlıqları üçün yaranan vəziyyətlərdə, yaxud da demokratik cəmiyyətdə ictimai asayişə, ictimai sağlamlığa, milli təhlükəsizliyə və ictimai təhlükə törədən vəziyyətlərdə yarana bilər.

Milli azlıqlara mənsub şəxslərin Oslo tövsiyələrində ifadə olunan və işlənən hüquqlar halında öz dillərindən ictimai yerlərdə və şəxsi həyatda istifadə hüququnu geniş ictimaiyyətdə iştirakın asanlaşdırılmış kontekstində görmək lazımdır. Tövsiyələr təcrid yanaşmanı nəzərdə tutmur, daha çox milli azlıqlara mənsub şəxslərin öz identikliyini, mədəniyyət və dillərini dəstəkləmək və inkişaf etdirmək hüquqları ilə tam və bərabər üzvlər kimi daha geniş cəmiyyətdə inteqrasiya olunmaq bacarığını təmin etmək zərurəti arasında balans yaratmağı təşviq edən yanaşmanı nəzərdə tutur. Bu perspektivdə belə inteqrasiya dövlətin rəsmi dilini (dillərini) yaxşı bilmədən çətin ki, mümkün olsun. Təhsilə aid belə qeydlər İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın 13 və 14-cü maddələrində və təhsil hüququnu nəzərdə tutan və onu dövlətin məcburi etməsi əksini tapan Uşaq Hüquqları haqqında Konvensiyanın 29-cu maddəsində vardır. Eyni zamanda, milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının 14(3)-cü maddəsi təminat verir ki, azlıqların dilinin öyrənilməsi "rəsmi dili öyrənməyə və ya bu dildə tədrisə ziyan vurmadan həyata keçirilir".

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası müəyyənləşdirir ki, milli azlıqlara mənsub şəxslərin öz soyadından, adından və atasının adından doğma dilində istifadə etmək hüququ vardır. İstifadəsi şəxsi identiklik üçün fundamental olan bu hüquq hər bir dövlət üçün spesifik şərait işığında tətbiq edilməlidir. Məsələn, dövlət hakimiyyəti milli azlıqlara mənsub şəxslərin adının, soyadının və atasının adının onların fonetik formasında yazılışında rəsmi dilin və ya dillərin yazılı əlifbasından istifadə edə bilər. Amma bu uyğun milli azlıqların dil sisteminə və ənənəsinə uyğun aparılmalıdır. Bununla əlaqədar, dövlət hakimiyyəti tərəfindən özünün ilkin adından (adlarından) məcburi imtinaya vadar edilmiş, yaxud da iradələrinin əleyhinə əcdadlarının adı (adları) dəyişdirilmiş şəxslərin, bilavasitə dilinə, həm də fərdlərin identikliyinə aid əsas hüququ - onları məsrəfsiz bərpa etmək hüququ olmalıdır.

Ad və yer adları, xüsusən milli azlıqlara mənsub və "birgə" hərəkət edən şəxslərə münasibətdə qrup identikliyinin əsas hissəsidir. Milli, yaxud Etnik, Dini Azlıqlara və Dil Azlıqlarına Mənsub Şəxslərin Hüquqları haqqında BMT-nin Bəyannaməsinin 2(1)-ci maddəsi milli azlıqlara mənsub şəxslərin "öz dilindən şəxsi həyatda və ictimai yerlərdə azad, maneəsiz və diskriminasiyaya məruz qalmadan istifadə etmək" hüququnu bəyan edir. Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasının 10 (1)-cu maddəsi qeyd edir ki, dövlət milli azlıqlara mənsub şəxslərin "öz azlığının dilindən şifahi və yazılı, şəxsi həyatda və ictimai yerlərdə azad və maneəsiz istifadə etmək" hüququnu tanıyacaqdır. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 27-ci maddəsi bəyan edir ki, "...azlıqlara mənsub şəxslərə həmin qrupun başqa üzvləri ilə birlikdə... doğma dildən istifadə etmək hüququna rədd cavabı verilə bilməz". Şəxsin başqaları ilə birlikdə ictimai yerlərdə öz dilindən maneəsiz və heç bir diskriminasiyaya məruz qalmadan istifadə etmək hüququ ciddi bir göstərişdir ki, milli azlıqlara mənsub şəxslər tərəfindən yaradılan və idarə olunan idarə, assosiasiya, təşkilat və ya müəssisə kimi hüquqi şəxslərin seçimlərinə uyğun və azlıqların doğma dilində ad qəbul etmək hüququ vardır. Belə korporativ ad dövlət hakimiyyəti tərəfindən tanınmalıdır və həmin qrupun dil sisteminə və ənənəsinə uyğun işlədilməlidir. Çərçivə Konvensiyasının 11 (3)-ci maddəsində deyilir ki, "milli azlıqlara mənsub şəxslərin ənənəvi şəkildə çoxluqla yaşadıqları rayonlarda Tərəflər... əhali üçün ənənəvi adların, küçə adlarının və başqa topoqrafiq məlumatların göstəricilərinin belə məlumata ehtiyac kifayət qədərdirsə, həm də milli azlıqların dillərində qoyulmasını təmin edirlər". Göstərilən tarixi adların dəyərini tanımaqdan imtina azlıqların tarixini təftiş və assimilasiyası demək olardı və bununla da, azlıqlara mənsub şəxslərin identikliyi üçün təhlükəyə çevrilərdi. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 27-ci maddəsi təsdiq edir ki, "etnik, dini azlıqlar və dil azlıqları mövcud olan ölkələrdə belə azlıqlara mənsub şəxslərə həmin qrupun digər üzvləri ilə birlikdə öz mədəniyyətindən istifadə etmək, öz dininə etiqad etmək... eyni zamanda doğma dilindən istifadə etmək hüququna maneəçilik törədilməməlidir". Milli, yaxud da Etnik, Dini Azlıqlara və Dil Azlıqlarına Mənsub Şəxslərin Hüquqları haqqında BMT Bəyannaməsinin 3(1) maddəsi müəyyənləşdirir ki, "azlıqlara mənsub şəxslər diskriminasiyaya məruz qalmadan öz qrupunun digər üzvləri ilə birlikdə və fərdi qaydada öz hüquqlarından... istifadə edə bilərlər".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Yeni dəbdə olan pəhrizlər insanı dişsiz qoyur

Yeni dəbə minən pəhriz növləri dişləri xarab edir, ağızdan pis iy gəlir. Bu gün dünyada meyvə şirəsi və ya çiy qida ilə pəhrizlər daha çox yayılıb. Orqanizmdə bu cür məhdudiyyətlər insan üçün təhlükəlidir. Milli.az Rusiya mətbuatına istinadən bildirir ki, bu cür pəhriz növləri Hollivudda daha çox populyardır. Selma Hayek və Keyt Hadson kimi məşhurlar bu cür pəhrizlərdən istifadə edirlər. London stomatologiya klinikasının direktoru, doktor Patel bildirir ki, bu cür pəhrizlər dişlərə qarşısıalınmaz ziyan vurur. Yalnız meyvə şirələrindən ibarət olan rasion orqanizmdə insulinin miqdarını pik həddinə çatdıra bilər. Bu da zamanla kollagenlərin strukturunu dəyişir. Məhz kollagenlərin strukturu damaq sağlamlığı üçün cavabdehdir. Alimlər bu cür pəhriz növləri ilə orqanizmi sınaqdan keçirməyi tövsiyə etmirlər. Konservləşdirilmiş meyvə şirələrindənsə təzə meyvələr yeməyi tövsiyə edirlər.



## Diqqət: Uşaqlara yatmazdan öncə şirniyyat və süd verməyin

Uşaqlarınıza yatmazdan öncə şirniyyat və süd verməyin. Britaniyalı həkimlər belə deyir. Onların sözlərinə görə, bu iki qidanın qarışığı balacalar üçün əsl təhlükə mənbəyidir. Araşdırmalar zamanı məlum olub ki, yatmazdan öncə şirniyyat və süd qəbul edən uşaqların həzm sistemi getdikcə sıradan çıxır. Bu da gün ərzində balacalarda narahatlıq hissi yaradır. 3 yaşdan kiçik olan uşaqların isə mədəsinin nisbətən zəif olduğunu qeyd edən həkimlər, belə uşaqlar yatana yaxın süd içdikdə, yaxud yemək yedikdə südün və ya yeməyin mədə turşusu ilə birlikdə qida borusundan tənəffüs borusuna keçmə ehtimalı olduğunu da vurğulayırlar.



## Alimlər 172 il əvvəl nəsli kəsilən quşu klonlaşdıracaqlar

"Nat-geo.ru" saytı xəbər verir ki, Böyük Britaniyada alimlər sonuncu nümunəsi 1844-cü ildə yaşayan quşu klonlaşdırmağa cəhd edəcəklər. Qütb dəniz quşu olan qaqarka axırıncı dəfə İslandiyanın şimal sahillərində ovlanıb. Orta pinqvin ölçülü bu qanadsız quşların kökü isti xəzə və ətinə görə kəsilib. Ancaq dünyada qaqarkalara aid çoxsaylı müqəvva, dəri, yumurta və hətta doldurulmuş daxili orqanlar saxlanılır. Hazırda beynəlxalq alimlər qrupu mövcud materiallardan istifadə etməklə qanadsız qaqarkanın DNT-sini ayırmağı və onu qaqarkanın yaxın qohumları olan quşun toxum hüceyrəsinə yerləşdirməyi planlaşdırır. Qanadsız qaqarka Avropada insan tərəfindən kökü kəsilən ilk növ olduğundan Britaniya alimləri öz səylərini məhz ona yönəldiblər. Bu növün bərpası Avropanın şimal dənizləri, habelə ABŞ və Kanadanın şərq sahilboyunda ekoloji vəziyyəti xeyli yaxşılaşdırmağa imkan verəcək.

## Ana südü uşaqları daha ağıllı edir?

Ana südü ilə qidalanan uşaqlarla bağlı araşdırma aparılıb. "Milliyet" qəzetinin xəbərinə görə, bu məqsədlə 1300 qadın və uşağın illər boyu davranış və inkişaf sxemi araşdırılıb. Uşaqlar 3 yaşına çatanda onlara dil testi keçirilib. Araşdırmaçılar müəyyənləşdirib ki, körpə ikən 6 ay boyunca əmizdirilən uşaqlar heç əmizdirilməyənlərdən 3 bal daha yüksək nəticə göstərib. 7 yaşına çatanda uşaqlar İQ testindən də keçiriliblər. 1 il boyunca əmizdirilən uşaqlar əmizdirilməyənlərlə müqayisədə 4 bal daha yüksək göstərici əldə edib. Araşdırmaçılar bildirib ki, əgər körpələrdən biri digərindən 1 ay daha artıq ana südü ilə qidalanıbsa, bu, onun zəka göstəricilərinə 1/3 bal təsir edir.

## "Qarabağ" və "Qəbələ"nin nəticələrinə sakit yanaşmaq çətindir"



AFFA-nın prezidenti Rövnəq Abdullayev "Qarabağ" və "Qəbələ" klublarının UEFA Avropa Liqasının qrup mərhələsinə yüksəlməsi ilə bağlı fikirlərini bildirib. AFFA-nın saytına danışan qurum prezidenti klublarımızı təbrik edib: "Dünən axşam Avropanın bir sıra ölkələrində olduğu kimi, Azərbaycanda da çox böyük futbol həyəcanı yaşanırdı. UEFA Avropa Liqasının play-off oyunlarını başqa cür izləmək, nəticələrə emosiyasız, sakit yanaşmaq çox çətindir. Sevinirəm ki, bizim həyəcanımızı, narahatlığımızı bu turnirdə çıxış edən hər iki klubumuz - "Qarabağ" və "Qəbələ" qrup mərhələsinə vəsiqə qazanmaqla unutdura bildi. Əminəm ki, ölkəmizin bütün futbol ictimaiyyəti, hər bir azarkeş, futbolsevər sevincimizə şərikdir. "Qarabağ" artıq üçüncü, "Qəbələ" isə ikinci dəfə qitənin mötəbər klub turnirinin qrup mərhələsinə vəsiqə qazanmaqla əvvəlki uğurların təsadüfi olmadığını, futbolun inkişafı yolunda düzgün istiqamət götürüldüyünü sübuta yetirdi. Hər iki klubumuza qrup mərhələsində uğurlar, azarkeşlərinə qələbə sevinci bəxş etmələrini arzulayıram".

## Çingiz Hüseynzadə: "Rio-2016" Yay Olimpiya Oyunlarında qazanılan nəticələr heç də gözlənilməz deyil



Avqustun 26-da Milli Olimpiya Komitəsinin inzibati binasında 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunlarının yekunu ilə bağlı mətbuat konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, mətbuat konfransında MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək idmançılarımızın Olimpiya Oyunlarından Vətənə böyük qələbə ilə qayıtdıqlarını bildirib. Ç.Hüseynzadə deyib ki, Olimpiya yığmamızın 18 medal qazanması Azərbaycanın 207 ölkə arasında 39-cu olmasına, medal sayına görə isə 207 iştirakçı və 87 mükafatçı dövlət arasında ilk onbeşlikdə yer tutmasına gətirib çıxarıb. Bu nəticəyə görə respublikamız İslam, türk və Qafqaz ölkələri arasında lider olub. Həmçinin idmançı sayının qazanılan medallara nisbətinə görə Azərbaycan Olimpiadada sıralamada ön cərgələrdə qərarlaşıb. Bir sözlə, Azərbaycanın Olimpiya millisi idmançı payına düşən medal sayına görə ən nəticəli komanda hesab edilib. İdmançılarımızın uğurlarından danışan MOK-un vitse-prezidenti qeyd edib ki, qazanılan nəticələr heç də gözlənilməz deyil. "Rio-2016"da Azərbaycan bayrağının 18 dəfə dalğalandırılması müstəqil ölkəmizin təbliğatı baxımından da mühüm hadisə idi.

## "Qarabağ" və "Qəbələ"nin Avroliqadakı rəqibləri müəyyənləşdi




Avqustun 26-da UEFA Avropa Liqasının qrup mərhələsinin püşkatma mərasimi keçirilib. Bununla da turnirdə mübarizəni davam etdirən komandaların yer aldığı qrupların tərkibi müəyyənləşib. AZƏRTAC xəbər verir ki, Monakoda keçirilən püşkatmanın nəticəsinə görə, Azərbaycan təmsilçisi "Qarabağ" komandası "J" qrupunda "Fiorentina" (İtaliya), PAOK (Yunanıstan) və "Slovan" (Liberets, Çexiya) klubları ilə mübarizə aparacaq. "C" qrupunda yer alan "Qəbələ"nin də rəqibləri isə "Anderlext" (Belçika), "Sent-Etyen" (Fransa) və "Maynts" (Almaniya) klubları olacaq. Ümumilikdə, püşkatma mərasimində Avropanın 48 komandası hərəsində dörd klub olmaqla 12 qrupa bölünüb.

## Ronaldo Avropanın ən yaxşı futbolçusudur!



Avropada ötən mövsümün ən yaxşı futbolçusu müəyyənləşib. Qol.az-ın məlumatına görə, UEFA-ya üzv olan 54 ölkənin nümayəndələri və jurnalistlər arasında keçirilən səsverməyə əsasən, Portuqaliya millisinn və "Real"ın hücumçusu Kriştiano Ronaldo ötən mövsümün ən yaxşısı seçilib. O, səsvermədə Qaret Beyl (Uels, "Real") və Antuan Qrizmannı (Fransa, "Ateltiko") qabaqlayıb. Qeyd edək ki, son olaraq bu mükafatı Argentina millisinin və "Barselona"nın futbolçusu Lionel Messi qazanmışdı.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**